RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 146 (9025) CÜMƏ, 15 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Silahlı Qüvvələrdə yeni islahatlar ordunu daha güclü və modern edib

## Qoşunların döyüş qabiliyyətinin yüksəldilməsi prosesi davamlı və sürətli gedir

Vətən müharibəsində qazanılan qələbədə bir neçə amil mühüm rol oynadı.

Bu sırada Prezident İlham Əliyevin qətiyyətli siyasəti, ordumuzun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrimizin modernləşdirilməsi və xalqımızın milli həmrəyliyi, ölkə rəhbərinin ətrafında sıx səfərbər olması xüsusi qeyd edilməlidir. Bütün bunlar torpaqlarımızın işğaldan azad olunmasının təməlində dayanan tarixi həqiqətlərdir.

Bu savaşda zəfər sevincini xalqımıza yaşadan İlham Əliyevin Ali Baş Komandanlıq etdiyi ordumuz oldu. Bu ordunun şəxsi heyəti, qoşun növləri və bütün hərbi birlikləri Vətən müharibəsinin ilk saatlarından son dəqiqəsinədək rəşadətlə döyüşdülər, hünər göstərdilər, yeni qəhrəmanlıq tarixi yazdılar. Elə bir döyüş olmadı ki, hərbçilərimiz qələbə qazanmasınlar, elə bir cəbhə olmadı ki, düşməni məhv etməsinlər. Hər bir döyüş, hər bir əməliyyat Azərbaycan Ordusunun gücünün təcəssümü kimi yadda qaldı. Düşməni döyüş meydanında diz çökdürən ordumuz hər birimizə əvəzolunmaz məğrurluq hissi yaşatdı. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub, qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik.

→ 4

## Azərbaycan Prezidenti İlham Əliyev Emmanuel Makronu Fransa Respublikasının milli bayramı münasibətilə təbrik edib



→ 2

## Taxıl sammiti qlobal problemi həll edə biləcəkmi?

### Türkiyənin vasitəçiliyi ilə keçirilən görüşdə dördtərəfli əlaqələndirmə mərkəzinin yaradılmasına qərar verilib

Ukrayna limanlarında yığılıb qalan taxılın təhlükəsiz daşınmasını təmin etmək üçün BMT nümayəndələrinin iştirakı ilə İstanbulda aparılan Türkiyə, Rusiya və Ukraynanın hərbi nümayəndə heyətləri arasındakı danışıqlar başa çatıb.

Bundan əvvəlki taxıl sammiti ötən ayın 21-də Moskvada Rusiya və Türkiyənin müdafiə nazirliklərinin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmişdi və danışıqlarda Ukrayna taxılının ixracı variantları müzakirə olunmuşdu. İstanbul görüşü isə taxıl ixracı üzrə danışıqların növbəti mərhələsi idi.

→ 12

## Şuşada Vaqif Poeziya Günləri başlayıb

Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə iyulun 14-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Vaqif Poeziya Günləri başlayıb.

Qırx illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra artıq ikinci dəfədir təşkil olunur.

AZƏRTAC xəbər verir ki, mədəniyyət və incəsənət xadimlərinin, Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin, gənc yazıçılar, şairlər və qazilərin iştirak etdikləri poeziya günləri çərçivəsində keçirilən ilk tədbir "Qarabağ" mehmanxanasının qarşısında təşkil olunan kitab sərgisidir. Sərgini Azərbaycan Yazıçılar Birliyinin üzvü İlqar Fəhmi açıb.

→ 5

## "Nəyi gözləyirsiniz... Qələbə var, tərənnümü isə zəifdir"

### "Azərbaycan"a cavab verirlər... və vermirlər

Biz qalib dövlətik!

Biz alnıaçıq, üzügülər xalqıq!

Biz "məğlubedilməz" Ermənistan ordusunu məhv etmişik!

Biz "məğlubedilməz erməniləri" torpaqlarımızdan iti qovan kimi qovmuşuq!

Biz XXI əsrin ən yeni müharibəsini aparmışıq!

Biz bütün dünya üçün örnəyə, nümunəyə çevrilən müharibənin müəllifləriyik!

Bizim bu qələbəni yaradan, bu qüruru, bu fəxarəti bizə yaşadan Müzəffər Ali Baş Komandanımız da, Ordumuz da, əsgər və zabitlərimiz də, qızıl qanları ilə bu qələbəni təmin edən şəhidlərimiz də ən yüksək tərifə, ən yüksək təltifə, ən yüksək mükafatlara layiqdirlər və ən dəyərli sənət əsərləri vasitəsilə tərənnüm edilməlidirlər!

Bu, onların halal haqqıdır!

Elə isə bir daha sual edirik:

Nəyi gözləyirsiniz?!

→ 3



# İqtisadi güc və siyasi iradənin qətiyyəti

→ 4

## Paşinyan erməni diasporunun "xidməti"ndən imtina edir

Hazırda qüvvədə olan qanuna görə, istənilən xarici ölkədə yaşayan erməni Ermənistana ayaq basan kimi vətəndaşlıq almaq üçün müraciət edə bilər. Ermənistanın milli təhlükəsizlik xidmətinin qanuna əlavə və dəyişikliklərlə bağlı açıqlamasında qeyd olunur ki, əsasən Yaxın Şərq, Suriya, Livan və İordaniyadan gələn və erməni olduqlarını iddia edən şəxslər Ermənistan vətəndaşlığı almaq üçün daha çox müraciət edir və vətəndaşlıq aldıqdan sonra ölkəyə 4-5 ildə bir dəfə gəlir və yaxud ümumiyyətlə gəlmirlər. Ermənistanın üzləşdiyi çoxsaylı problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində əsas günahkar tərəflərdən biri kimi diaspor təşkilatları da göstərilir.

Ermənistanın istər daxili, istərsə də xarici siyasətinin müəyyən olunmasında həlledici təsir gücünə malik olan diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edib. Fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə qarşılaşmayan erməni diasporunu əslində Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi İrəvanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir.

Ölkə hakimiyyəti isə hər zaman diaspor qurumlarından gələn göstəriş və əmrləri canla-başla yerinə yetirməyə müntəzir dayanır.

→ 12

## Cənnət görmək istəyən...

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə xatırlatmışdır: "Mən turizmi də ixrac növü hesab edirəm. Respublikamızda neftdən sonra ikinci gəlirli sahə turizmdir". Odur ki, ölkənin iqtisadi qüdrətinin daha da artması və Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün bu sahəyə xüsusi diqqət yetirilir.

Bu gün ölkəmizdə səyahətçilər üçün dünya standartları səviyyəsində şərait yaradılıb. Müasir nəqliyyat strukturu - gözoxşayan beşulduzlu Heydər Əliyev Beynəlxalq Aeroportu, eləcə də turistlərin daha çox üz tutduqları bölgələrdəki beynəlxalq hava limanları qonaqların xidmətindədir. Biz hələ paytaxt Bakıdan tutmuş bölgələrədək bir-birindən rahat yolları, gözəl hotelləri demirik. Demək olar ki, ölkəmizdə dünyanın bütün aparıcı hotellərinin brendləri fəaliyyət göstərir. Əsas məsələ odur ki, Azərbaycanda sabitlik var və gələn turistlərin təhlükəsizliyinə, səmərəli istirahətinə və gəzintisinə ciddi təminat var.

İndi MDB məkanında turistlərin daha çox üz tutduğu 10 ən yaxşı kurort və səyahət ölkəsi sırasında Azərbaycanın da adı çəkilir. Təbii ki, turizm sənayesinin çoxşaxəli olması, istirahətin təşkili üçün normal şəraitin mövcudluğu onların seçimində əsas amillərdəndir. Son illər ölkəmizdə bu sahənin inkişafı üçün Xəzərətrafı ərazilərdə və bölgələrdə sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərin inkişafına xüsusi diqqət yetirilib.

→ 11

# Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu il Azərbaycan-Fransa dövlətlərarası əlaqələrinin tarixində əlamətdar ildönümüdür. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz cari ildə biz ötən dövr ərzində əldə etdiyimiz nailiyyətlərə nəzər salır, iqtisadiyyat, energetika, mədəniyyət, təhsil və digər sahələrdə formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi imkanlarını araşdırırıq. Hesab edirəm ki, müxtəlif istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün perspektivlər vardır.

Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi reallıq davamlı sülh və regional iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaratmışdır. Torpaqlarının 30 illik işğalına son qoyan Azərbaycan müharibə səhifəsini çevirmək, Ermənistanla münasibətləri normallaşdırmaq və sülh müqaviləsi imzalamaq istəyindədir. Beynəlxalq hüquqa söykənərək tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə Fransanın dəyərli töhfə verə biləcəyinə inanırıq.

İşğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə, bölgənin sosial-iqtisadi reinteqrasiyasına ən böyük əngəl olaraq qalmaqdadır. 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxs mina hadisələri nəticəsində həlak olmuş və ya ağır xəsarət almışdır. Biz ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi töhfəni təqdir edir, Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin lazımi dəstək göstərəcəyinə ümidvarıq.

Dərin hörmət və ehtiramlarımı izhar edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2022-ci il*

# İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi tamam olur.

Azərbaycanlıların tarixən köklü yaşadığı mühüm elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi tanınan İrəvan mahalında 1882-ci ildən etibarən fəaliyyətə başlayan teatr sonrakı dövrlər ərzində özünün zəngin repertuarında milli ədəbi-bədii fikrin nailiyyətlərinə daim xüsusi yer verərək tamaşaçıların rəğbətini qazanmış və mədəniyyət salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır.

Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır. 1918-1920-ci illərdə ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutan teatr öz fəaliyyətini 1922-ci ildə bərpa etmiş, Azərbaycan ziyalılarının fədakarlığı sayəsində 1928-ci ildə müvafiq qərarla dövlət teatrı statusunu almış, 1935-ci ildən isə böyük dramaturq Cəfər Cabbarlının adını daşımışdır.

Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdəki deportasiyasından da acı nəsibini alaraq, fəaliyyətini yalnız 1967-ci ildə bərpa edən İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1980-ci illərin sonlarında ermənilərin yenidən başlatdığı etnik təmizləmə və təcavüzkarlıq siyasəti nəticəsində yurddaşlarımızla bərabər didərgin düşmüş, qaçqın həyatı yaşamalı olmuşdur.

1989-cu ildən Bakı şəhərində məskunlaşan teatr ötən müddətdə ənənəvi repertuarını rəngarəng mövzularda yeni-yeni əsərlərlə daha da genişləndirmiş və bir sıra yaradıcılıq uğurları qazanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və İrəvan Dövlət Azərbaycan Dram Teatrının xalqımızın mədəni-ictimai həyatında özünəməxsus rolunu nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2022-ci il*

# "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 69, № 4, maddə 656, № 12, maddə 1950; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1694 nömrəli Fərmanı) 5-ci hissəsinə "təyin edilməsi" sözlərindən sonra ", habelə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda nəzərdə tutulmuş xidmətlərin kiçik və orta biznes evlərində həyata keçirilməsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2022-ci il*

# Gürcüstanın Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Gürcüstanın Baş prokuroru İrakli Şotadzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir. İyulun 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.




Baş Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, görüşdə dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçılarının birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, dərin tarixə və mədəni köklərə söykənən ikitərəfli münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanıb.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Gürcüstanın Baş prokuroru İrakli Şotadze rəhbərlik etdiyi qurumun Azərbaycan Prokurorluğu ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Görüşdə Gürcüstanın Kvemo-Kartli və Kaxetiya bölgələrində sıx yaşayan soydaşlarımızın, eləcə də ölkəmizin Ağstafa, Qazax, Balakən, Zaqatala və digər rayonlarda yaşayan etnik gürcülərin hüquq və azadlıqlarının qorunması məsələləri müzakirə olunub. Hüquqi sahədə, həmçinin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində, ekstradisiya və qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olub.

Daha sonra qonaqlar Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasında yaradılmış şəraitlə tanış olaraq 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət ediblər.

Görüşlərdə Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze iştirak edib.

Nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Litvalı parlamentarilər Şəhidlər xiyabanını ziyarət ediblər

İyulun 14-də ölkəmizdə səfərdə olan Litva Respublikası Seyminin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kazis Starkeviçyusun başçılıq etdiyi nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib.



Milli Məclisdən verilən məlumata görə, Litva parlamentinin nümayəndə heyətinin üzvləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edərək üzərinə tər çiçəklər düzüblər. Qonaqlar həmçinin "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən litvalı parlamentarilərə Şəhidlər xiyabanı və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***"Azərbaycan"***

# Azərbaycan-Litva əlaqələri inkişaf edir

İyulun 14-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Litva Respublikası Seyminin Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kazis Strakeviçyusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Milli Məclisdən verilən məlumata görə, qonaqları salamlayan vitse-spiker bu cür səfərlərin ölkələrimiz arasındakı münasibətlərin inkişafına xüsusi təkan verdiyini bildirib. Azərbaycan-Litva münasibətlərinin tarixinə toxunan sədr müavini, Litvanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu qeyd edib, qarşılıqlı münasibətlərin inkişafında ölkə başçılarının, eləcə də digər yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətindən danışıb.

Adil Əliyev Ermənistanın Azərbaycanın torpaqlarını 30 ilə yaxın işğal altında saxlamasından danışaraq bu illər ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmadığını və Ermənistanın beynəlxalq hüququn tələblərini kobud şəkildə pozduğunu bildirib. Diqqətə çatdırıb ki, 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində tarixi torpaqlarımız işğaldan azad edilib və ərazi bütövlüyümüz bərpa olunub. Vitse-spiker Ermənistanın işğal illərində bu ərazilərdə törətdiyi dağıntılar, hazırda işğaldan azad olunmuş ərazilərdə böyük sürətlə həyata keçirilən abadlıq-quruculuq işləri barədə məlumat verib, bu ərazilərə yeni nəfəs gəldiyini qeyd edib.

Vitse-spiker Ermənistanın hələ də sülh müqaviləsinin imzalanması istiqamətində konkret addım atmadığını və Azərbaycan ərazisinin mina ilə ən çox çirklənmiş ölkələrdən biri olmasını qonaqların diqqətinə çatdırıb. O, beynəlxalq ictimaiyyətin bu məsələlərə xüsusi önəm verməsinin zəruriliyini vurğulayıb.

Litva Respublikası Seyminin Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kazis Strakeviçyus səmimi görüşə görə minnətdarlığını bildirib. O, Litva-Azərbaycan münasibətlərinin inkişafının hər iki ölkənin maraqlarına uyğun olduğunu qeyd edərək bu münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. Qonaq parlamentlərarası münasibətlərə də toxunaraq qarşılıqlı təcrübənin öyrənilməsinin, əməkdaşlıq münasibətlərinin dərinləşməsinin vacibliyindən danışıb.

Söhbət zamanı Azərbaycanın artan nüfuzundan, enerji tədarükçüsü kimi çıxış etməsindən, eləcə də Litva və Azərbaycan arasında ticarət, humanitar və digər sahələrdə mövcud olan əməkdaşlıqdan bəhs edilib.

Görüşdə Milli Məclisin deputatları Nəsib Məhəməliyev, Pərvin Kərimzadə, Şahin İsmayılov, Azərbaycanın Litvadakı səfiri Tamerlan Qarayev və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

İyulun 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan Litva Respublikası Seyminin Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kazis Starkeviçyusun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisdən verilən məlumata görə, qonaqları salamlayan Səməd Seyidov ölkələrimiz arasında çox yaxşı münasibətlərin qurulduğunu deyib. O, Litva ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsində hər iki ölkə prezidentlərinin və parlament sədrlərinin siyasi iradələrinin əsaslı rol oynadığını qeyd edib. Ölkələrimizin bütün sahələr üzrə əməkdaşlıq etdiyini söyləyən Səməd Seyidov əlaqələrimizin ancaq iqtisadi sahələri əhatə etmədiyini, eyni zamanda beynəlxalq təşkilatlar səviyyəsində də səmərəli olduğunu vurğulayıb. O, eyni zamanda diqqətə çatdırıb ki, hər iki ölkənin səfiri Azərbaycan-Litva əlaqələrinin inkişafı üçün çox mühüm işlər görür və nəticələr göz qabağındadır.

Səməd Seyidov ölkəmizə münasibətlərinə, adekvat olmayan, yalançı, hətta hərdən şüurlu şəkildə təhrikedici hərəkətlərin qarşısının alınmasında göstərdiyi həmrəyliyə görə Litva Respublikasına təşəkkürünü bildirib. O qeyd edib ki, bu gün əgər üç Zaqafqaziya ölkəsini müqayisə etsək, daha çox müstəqil, daha çox Avropa ilə əməkdaşlığa can atan, öz partnyorları ilə açıq və səmimi ölkə kimi Azərbaycan görünür.

Kazis Starkeviçyus 30 illik erməni işğalına son qoyması münasibəti ilə Azərbaycan xalqını təbrik edib. Bildirib ki, artıq işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə işləri aparılır. Ermənistanın Azərbaycan ərazilərini işğalı, mülki insanların, obyektlərin raket atəşinə tutulması beynəlxalq hüquq və normalara sığmır.

Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Nəsib Məhəməliyev ölkəmizin Avropa İttifaqının 9 üzvü ilə strateji əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edib. Həmçinin bildirib ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Şarl Mişel və Nikol Paşinyanla görüşlər keçirdiyini deyən Nəsib Məhəməliyev diqqətə çatdırıb ki, dövlətimizin başçısı sülh və təhlükəsizliyin təmin olunması istiqamətində gərgin səylər göstərir. Amma Ermənistanda hələ də revanşist qüvvələr mövcuddur. Regionda təhlükəsizliyin təmin olunması baxımından sülh müqaviləsinin imzalanması mühüm şərtdir.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2022-ci ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov iyulun 14-də Şəki şəhərində Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarından olan vətəndaşları qəbul edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan əvvəl general-polkovnik Arzu Rəhimov və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 25 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən hərbi xidmətə və ya mülki işə qəbul, xidmət yerlərinin müəyyənləşdirilməsi, Qarabağ müharibəsi veteranı adının verilməsi, həqiqi hərbi xidmətə çağırılan gənclərin ailə vəziyyəti ilə əlaqədar yaşadıqları əraziyə yaxın hərbi hissələrdə xidmət keçmələrinə kömək göstərilməsi və digər məsələlərlə bağlı olub.

Qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerində həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

◆ Yazılanlara qayıdırıq

# "Nəyi gözləyirsiniz... Qələbə var, tərənnümü isə zəifdir"

## "Azərbaycan"a cavab verirlər... və vermirlər









"Azərbaycan" qəzetinin 13 aprel 2022-ci il tarixli nömrəsində "Nəyi gözləyirsiniz..." adlı məqalə dərc etmişdik. Məqalədə gərəkli və ağrılı, daha çox narahatedici bir məsələyə toxunulmuşdu:

Qələbə var, tərənnümü isə zəifdir!

Başqa sözlə, kifayət qədər vaxt keçməsinə baxmayaraq, 44 günlük Vətən müharibəsi dövründə qeyri-adi qəhrəmanlıqlar göstərərək, 30 il erməni işğalında qalmış torpaqlarımızı azad edən qəhrəman əsgər və zabitlər, generallar və komandirlər haqqında, bütövlükdə xalqın bu şücaəti, müharibəsi və qələbəsi ilə bağlı ən müxtəlif janrlarda, yüksək tələblərə cavab verən əsərlərin yaradılmamasından narahatlıq ifadə olunurdu.

Məsələ həm də kəskin və prinsipial qoyulurdu:

Niyə sənət adamları real həyatda baş verənləri, şahidi olduqları hadisələri, eşitdiklərini, gördüklərini və bildiklərini "sənətin dilinə" çevirərək yenidən xalqa, bu hünəri və fədakarlığı göstərənlərə qaytarmırlar, beləliklə, sənət əsərlərində əbədiyaşarlılığı təmin etmirlər!

❖ ❖ ❖

Məqalədə qaldırılan problemlər və tutulan iradlarla bağlı müxtəlif qurumların mövqeyini öyrənmək üçün bir neçə ünvana məktublar da göndərmişdik.

Həmin məktublara cavab verən də oldu, verməyən də...

Cavablarda bizi qane edən məqamlar da oldu, etməyənlər də...

Sən demə, bu problemi qaldıranlarla onu çözməli olanların mövqeləri fərqli, baxışları müxtəlif imiş...

Əvvəlcə redaksiyamıza gələn cavab məktublarını müəyyən ixtisarlarla (həcmləri böyük olduğuna görə) diqqətinizə təqdim edirik:

*"Sizin 15.04.2022-ci il tarixli "Azərbaycan" qəzetində yaradıcı təşkilatlara ünvanladığınız məqalənizə münasibət bildirərək qeyd edirəm ki, 44 günlük Vətən müharibəsi günlərində təşkilatımızı təmsil edən bəstəkar və musiqişünaslarımız daim baş verən hadisələri izləyərək bu tarixi şəraiti öz əsərlərində tərənnüm ediblər. Belə ki, 2020-ci il sentyabrın sonundan başlayan və 44 gün davam edən II Qarabağ müharibəsi dövründə Azərbaycan Bəstəkarlar İttifaqı xalqımızla birgə olmuş, baş verən hadisələrə ciddi reaksiya verərək, bir sıra bəyanatlar qəbul etmişdir...*

*2020-ci il sentyabr-oktyabr aylarında Qarabağ uğrunda şanlı Azərbaycan Ordusunun apardığı Vətən müharibəsində xalqımızın hərbi-vətənpərvərlik ruhlu mahnı və marşlara tələbatının daha da artmasını nəzərə alaraq bu tələbatı ödəmək məqsədi ilə Azərbaycan bəstəkarlarının son dövrdə yaranmış vətənpərvərlik mahnıları və marşları toplanaraq, notları və səs yazıları Mədəniyyət Nazirliyinə təqdim olunub.*

*2021-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə Zəfər bayramının 1-ci ildönümü münasibətilə bir sıra tədbirlər həyata keçirilib...*

*2021-ci il 2 noyabr tarixində Heydər Əliyev Sarayında keçirilmiş "Zəfər Günü"nə həsr olunmuş "Qarabağ Azərbaycandır!" adlı konsertdə bəstəkarlarımızın bu tarixi qələbəmizə həsr olunmuş əsərləri səsləndi.*

*Firəngiz Əlizadə,*
*Azərbaycan Bəstəkarlar İttifaqının sədri,*
*Xalq artisti, professor"*

■ ■ ■

*"Azərbaycan" qəzetinin 15 aprel 2022-ci il tarixli 11 nömrəli məktubuna əsasən, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin, Azərbaycan Ordusunun, o cümlədən şəhid olmuş və sağlamlıqlarını itirmiş əsgər və zabitlərimizin göstərdikləri şücaət və qəhrəmanlıqlarının təbliği istiqamətində Mədəniyyət Nazirliyi tərəfindən görülmüş və görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumatı diqqətinizə təqdim edirik.*

*Qoşma:5 vərəq.*

*Elnur Əliyev,*
*Mədəniyyət nazirinin birinci müavini"*

■ ■ ■

*"İlk öncə Rəssamlar İttifaqına ünvanladığınız maraqlı və dolğun məzmunlu məktubunuza görə Sizə təşəkkür edirik. Məktubda qeyd etdiyiniz bəzi nüanslarla biz də razıyıq. Sizin Azərbaycanda baş verən hadisələrə düzgün baxışınız sübut edir ki, yalnız şanlı Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və mükəmməl rəhbərliyi altında igid və qəhrəman ordumuz doğma Qarabağımızı işğal altından azad etdi.*

*Azərbaycan Rəssamlar İttifaqı son 30 il ərzində heç vaxt kənarda qalmayıb. Əsgərlərimizin qəhrəmanlıq və şücaətini, vətənpərvər xalqımızın mətanətini əks etdirən mövzularda rəssamlarımız tərəfindən əsərlər yaranmış, sərgi-müsabiqələr, sərgilər, simpoziumlar keçirilmişdir.*

*I Qarabağ müharibəsində rəssamlarımız qrup şəklində cəbhə bölgələrinə səfər edərək özləri ilə zəruri olan dərmanlar, daşnaklara qarşı təbliğat plakatları və karikaturalar aparıblar. Onlar həmin yerlərdə əsgərlərin portretlərini, döyüş səhnələrini çəkib, qayıtdıqdan sonra həmin eskizlər əsasında sərgilər təşkil olunub.*

*Qeyd edək ki, bütün bu 30 il ərzində Rəssamlar İttifaqı tərəfindən "Xocalı", "Soyqırımı" illik sərgiləri, eləcə də Azərbaycan və Qarabağ tarixinə aid sərgilər və sərgi-müsabiqələr keçirilir, ən yaxşı əsərlər Azərbaycan Rəssamlar İttifaqının diplom və mükafatları ilə təltif olunur.*

*Müzəffər Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə başlayan 44 günlük qəhrəmanlıq müharibəsi erməni işğalı qarşısında böyük qələbə ilə başa çatdı və torpaqlarımız azad olundu.*

*Azərbaycan Rəssamlar İttifaqı Müzəffər Ali Baş Komandan, Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və qəhrəman ordumuzun mətanət və şücaətini təsviri sənət vasitəsilə nümayiş etdirmək məqsədi ilə rəssamlara müraciət etdi.*

*Rəssamlar tərəfindən Müzəffər Ali Baş Komandana, onun qəhrəman ordusuna həsr edilmiş plakatlar silsiləsi yaradılmış, karikatura sərgiləri açılmışdır.*

*Rəssamlar İttifaqı tərəfindən Şuşa şəhərinin tarix və mədəniyyətini əks etdirən "Şuşa ili" sərgisi üçün eskizlərin yaradılması məqsədi ilə müsabiqə elan edilib və bir sıra sərgi və tədbirlərin keçirilməsi nəzərdə tutulub.*

*Fərhad Xəlilov,*
*Azərbaycan Rəssamlar İttifaqının sədri"*

❖ ❖ ❖

Hər məktuba görülən işlərlə bağlı geniş arayış da əlavə edilmişdir.

Təəssüf ki, həcmləri böyük olduğundan və bir də əsərlər əvvəlki dövrlərdə ərsəyə gətirildiyindən, başqa sözlə, qaldırılan problemin tələblərinə cavab vermədiyindən onları dərc etmək imkanımız olmadı!

Amma...

Məktubumuza cavab verməyənlər (sonralar telefon zəngləri ilə xatırlatmalar olsa da belə), problemə öz münasibətlərini bildirməyənlər də oldu.

Səbəbini yalnız ehtimal edə bilərik:

**AZƏRBAYCAN KİNEMATOQRAFÇILAR İTTİFAQI**

Bu təşkilat hələ başı hayındadır! Təşkilati məsələlərlə məşğul olduqlarından yəqin ki, kimin məktuba münasibət bildirəcəyini öz aralarında həll edə bilməyiblər.

**AUDİOVİZUAL ŞURA**

Görünür, bu qurum yenə də telekanalların "yaradıcılıq siyasətinə" müdaxilə etmədiyini əsas gətirərək problemə münasibət bildirməkdən çəkinib. Üstəlik, özəl telekanallardakı məişət mövzusundakı bol-bol serialların daha vacib və gərəkliliyini dəstəkləyir.

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ**

Yəqin bu mövzuda qələmə alınmış şeirlər və müxtəlif bədii nümunələr əsasında hazırlayıb, operativ qaydada buraxdıqları "Qarabağ dastanı" adlı kitabla kifayətləniblər.

❖ ❖ ❖

Biz isə qaldırılan məsələnin öz aktuallığını hələ də saxladığını, 44 günlük Zəfər müharibəsi ilə bağlı say, keyfiyyət, sanbal, məzmun, mövzu rəngarəngliyi baxımından çox cüzi əsərlər meydana çıxdığını hesab edirik!

Yaradıcı insanlar qəhrəman Azərbaycan əsgərinə, zabitinə, general və komandanına çox borcludurlar!

Təbiidir ki, əsgərlərimiz, xüsusən şəhidlərimiz barədə çox deyilib, yazılıb, müxtəlif süjetlər çəkilib!

Amma bu şücaətə, bu qəhrəmanlığa layiq əsərləri hələ də görmürük!

Odur ki, mövzunu davam etdiririk!

## KİMİ GÖZLƏYİRSİNİZ, YAXUD SİZİN İŞİNİZİ ƏVƏZİNİZƏ BAŞQASIMI GÖRMƏLİDİR?!

Son illər dövlət qurumlarında qəribə şakər yaranıb:

Qəzetin tənqidi çıxışlarına cavab verməmək!

Tənqidi yazıları görməzliyə qoymaq!

Yaxud ümumi sözlərlə cavab məktubu göndərərək, məsələni bağlamaq!

Tənqidi materiallardan 2-3 dəfə böyük yazını "cavab" kimi redaksiyaya ünvanlayaraq dərcini istəmək də yeni şakərlər sırasındadır.

Sanki tənqid edilən nöqsanlar bunlara aid deyil!

Elə bil həmin nöqsan və çatışmazlıqlarla bağlı heç bir ölçü də götürülməməlidir.

Sicilləmə cavabın üstüörtülü mənası isə budur ki, "baxın, biz işləyirik, siz isə nahaqdan bizləri tənqid edirsiniz, bu yazılanları özünüz də oxuyun, oxucularınız da!"

Əlbəttə, sağlam tənqidə sağlam da münasibət olmalıdır.

"Azərbaycan" qəzeti heç zaman heç kəsi haqsız yerə, tənqid xatirinə tənqid etmir!

İstəyirik ki, hər işimiz yaxşı olsun, diqqətdən kənarda qalan, yaddan çıxan, yaxud insanların umduğu, nəticə gözlədiyi məsələlər tez bir zamanda həllini tapsın!

Üstəlik, həmin nəticədən ayrı-ayrı insanlar da razı qalsınlar, ölkə vətəndaşları da!

Yaxanı qırağa çəkməklə heç bir problem həll olunmur, heç bir nöqsan və çatışmazlıq düzəlmir!

Bəli, biz də etiraf edirik:

Əsərlər var, tamaşalar var, musiqi var, seriallar var!

Keçilməz maneələri dəf edən, sıldırım qayalara dırmaşan, cığırlarla hərəkət edərək Şuşanı əlbəyaxa döyüşdə, düşməni məhv edərək geri qaytaran qəhrəmanlara layiq, onları vəsf edən nəsr və nəzm əsərlərimiz necə, varmı?

Yoxdur!

Qaçqın həyatından bəhs edən, mükafatlar alan səhnə əsərlərimiz var!

Azərbaycanın əsgər və zabitinin, şəhidlərin şücaətindən danışan dram əsərləri necə, yazılıbmı, varmı?!

Yoxdur!

Düşündürən simfonik əsərlər, qəlboxşayan bəstələr, ayaq üçün yazılan diringə mahnılar kifayət qədər olsa da, milyonların qanını coşduran, hamı üçün hitə çevrilən, çalınanda xorla oxunan marşlarımız necə, varmı?!

Yoxdur!

Hər gün saatlarla vaxtımızı alan, məişət dedi-qodularından bəhs edən, mənəvi dəyərlərimizi təhrif edən, bütün kanallarla yüzlərlə seriyası nümayiş etdirilən primitiv seriallarımız var!

Zəfər müharibəsindən söhbət açan, möcüzəvi qəhrəmanlıqlar göstərən, düşməni rəzil günə qoyan, canı-qanı bahasına Qarabağı geri qaytaran sərkərdə, general, zabit və əsgərlərin rəşadətindən bəhs edən seriallar necə, varmı, çəkilirmi?!

Yoxdur!

Xalqımız nə istəyir?

Bu qələbəni bizə nəsib edənlər - adi əsgərdən tutmuş Müzəffər Ali Baş Komandana qədər hamısı vəsf edilsin, şəhidlər, döyüşçülər, qəhrəmanlar barədə gözəl sənət əsərləri meydana çıxsın!

Həm də lap indi!

Sonraya saxlamadan!

Çünki I Qarabağ müharibəsindən yazmaq üçün "üstündən illər keçəndən sonra əsl əsərlər meydana çıxacaq" vədini verənlər sözlərinə əməl etmədilər.

Deməli, hadisələrdən isti-isti yazmaq, qəhrəmanlığı dərhal tərənnüm etmək lazımdır!

Yazmaqları bir yana, heç bu barədə çıxışlara, tənqidi məqalələrə, məktublara belə reaksiya vermirlər.

❖ ❖ ❖

Azərbaycan bir dövlət olaraq bütün dünyanın gözü qarşısında 30 illik işğala son qoydu, 44 günlük Zəfər müharibəsində erməni faşistlərini torpaqlarından qovdu, ərazi bütövlüyünü bərpa etdi!

Bu şanlı qələbə:

Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaəti, hərb meydanında, diplomatiya və informasiya müharibəsində qəhrəmanlığı sayəsində qazanıldı.

İndiyədək Azərbaycan Ordusunun, əsgər və zabitlərinin, Vətən uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlığı və rəşadəti barədə hamının zövqünü oxşayan və razı salan, milyonların qəlbinə yol tapan, hitə çevrilən, məzmunu və sanbalı ilə seçilən, insanların həm qəlbinə, həm hisslərinə təsir göstərən əsərlər isə hələ də yoxdur!

Halbuki ölkəmizdə kifayət qədər adlı-sanlı, titullu, hətta deyərdik ki, daha artığına iddia edən yazıçı, şair, dramaturq, bəstəkar, rejissor, ssenarist, rəssam və digərləri vardır!

Gəlin bir qədər də açıq danışaq:

Əməkdar və Xalq artisti adları, Prezident təqaüdü almaq üçün yaxa cıran, bütün aşkar və gizli vasitələrə əl atan, telekanallarda, sosial şəbəkədə ah-vay edən, peşəkarlıqlarından, xidmətlərindən, istedadlarından yorulmadan söhbət açanlar indiyədək ortaya bir dəyərli əsər qoya bilməyiblər!

Ola bilsin ki, kimsə nəsə yazıb və özlüyündə onu şedevr hesab edir!

Amma 44 günlük Zəfər müharibəsindən sonra meydanda hamının bəyəndiyi və sevdiyi, dillərə düşüb ürəklərə yatan əsər görməmişik və görmürük də!

❖ ❖ ❖

Şuşanın əlbəyaxa döyüşlə, topsuz, tanksız, raketsiz alınması bütün dünyanı heyrətə saldı, hərb tarixinə qızıl hərflərlə yazıldı.

Erməniyə sağalmaz yara vurdu, gözdağına çevrildi.

Azərbaycansevənlərin heyrət və məhəbbətinə səbəb oldu!

Prezident İlham Əliyev Şuşaya mədəniyyət paytaxtı statusu verdi!

2022-ci il "Şuşa ili" elan olundu!

2023-cü il üçün Şuşa Türk dövlətlərinin mədəniyyət paytaxtı adına layiq görülüb!

Bu gün Şuşaya dünyanın hər yerindən gələn qonaqların, bu qədim şəhərdə keçirilən yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin sayı-hesabı yoxdur!

Şuşaya gələn hər bir insan ona vurulur, sevgi və heyrətini gizlətmir.

Amma bütün hiss və duyğular mükəmməl bir əsərə, gözəl bir mahnıya çevrilməyib!

İki əsrdir Xan Şuşinskinin düzüb-qoşduğu "Şuşanın dağları başı dumanlı..." mahnısı dillərdən düşmür.

Az qala Şuşa şəhərinin himninə çevrilib!

Belə bir mahnı yazmaq olmazmı?!

Şuşanı geri qaytaran qəhrəmanları vəsf edən, qeyri-adi igidlikləri tərənnüm edən, Şuşada, Şuşa ilə bağlı tədbirlərdə hamının birlikdə, xorla oxuyacağı mahnını, marşı kim yazmalıdır?

Nə vaxt yazılacaq bu mövzuda əsər?

Yoxsa Xan Şuşinskidən başqa daha Azərbaycanda bəstəkar yoxdur?!

Qara Qarayev, Fikrət Əmirov, Mayestro Niyazi Azərbaycan muğamları əsasında qeyri-adi simfonik əsərlər yazdılar!

Bütün dünyanı heyrətə saldılar!

Əsərləri dünyanın ən böyük dövlətlərinin ən məşhur konsert salonlarında səsləndirildi.

Bu əsərlərin mayasında Azərbaycan muğamları ilə bərabər, xalq mahnıları, aşıq musiqisi də vardı.

Qəhrəmanlıq dastanlarından doğan, qan coşduran saz havaları, qədim musiqi aləti zurnada səsləndirilən, Koroğlu nərəsini, at kişnərtilərini xatırladan döyüş musiqiləri timsalında marşlar yazmaq, 44 günlük Zəfər müharibəsi qəhrəmanlarını şöhrətləndirmək, hörmətləndirmək, dillər əzbərinə çevirmək olmazmı?

❖ ❖ ❖

Meydana girib dövlətdən umacaqlarını yorulmadan bəyan edənlər, özlərini qeyri-adi istedad sahibi sayanlar harda qalıblar?

Niyə səsləri eşidilmir?

Niyə meydana əsər qoymurlar?

Xalq misalında deyildiyi kimi: bu meydan, bu da şeytan!

Yoxsa yenə yazıb-yaratmaq üçün daha 30 il vaxt istəyirsiniz?

Əgər birinci 30 ilin heç bir məhsulu, faydası olmadısa, xalq onlara daha bir 30 illik "yaradıcılıq dövrü" verməlidirmi?

Görünür, artıq fəxri adların və imtiyazların ləğv edilməsi zamanı da çatıb!

Dünyanın demokratik ölkələrində olduğu kimi...

Sənətkarı əsəri tanıtmalı, şöhrətləndirməli, hörmət sahibinə çevirməlidir!

Dövlətin verdiyi fəxri adlar və titullar yox!

❖ ❖ ❖

Biz qalib dövlətik!

Biz alnıaçıq, üzügülər xalqıq!

Biz "məğlubedilməz" Ermənistan ordusunu məhv etmişik!

Biz "məğlubedilməz erməniləri" torpaqlarımızdan iti qovan kimi qovmuşuq!

Biz XXI əsrin ən yeni müharibəsini aparmışıq!

Biz bütün dünya üçün örnəyə, nümunəyə çevrilən müharibənin müəllifləriyik!

Bizim bu qələbəni yaradan, bu qüruru, bu fəxarəti bizə yaşadan Müzəffər Ali Baş Komandanımız da, Ordumuz da, əsgər və zabitlərimiz də, qızıl qanları ilə bu qələbəni təmin edən şəhidlərimiz də ən yüksək tərifə, ən yüksək təltifə, ən yüksək mükafatlara layiqdirlər və ən dəyərli sənət əsərləri vasitəsilə tərənnüm edilməlidirlər!

Bu, onların halal haqqıdır!

Elə isə bir daha sual edirik:

Nəyi gözləyirsiniz?!

**Bəxtiyar SADIQOV**



# Silahlı Qüvvələrdə yeni islahatlar ordunu daha güclü və modern edib

## Qoşunların döyüş qabiliyyətinin yüksəldilməsi prosesi davamlı və sürətli gedir

Vətən müharibəsində qazanılan qələbədə bir neçə amil mühüm rol oynadı. Bu sırada Prezident İlham Əliyevin qətiyyətli siyasəti, ordumuzun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrimizin modernləşdirilməsi və xalqımızın milli həmrəyliyi, ölkə rəhbərinin ətrafında sıx səfərbər olması xüsusi qeyd edilməlidir. Bütün bunlar torpaqlarımızın işğaldan azad olunmasının təməlində dayanan tarixi həqiqətlərdir.



### Sağlam təməllərə söykənən ordu quruculuğu

Bu savaşda zəfər sevincini xalqımıza yaşadan İlham Əliyevin Ali Baş Komandanlıq etdiyi ordumuz oldu. Bu ordunun şəxsi heyəti, qoşun növləri və bütün hərbi birlikləri Vətən müharibəsinin ilk saatlarından son dəqiqəsinədək rəşadətlə döyüşdülər, hünər göstərdilər, yeni qəhrəmanlıq tarixi yazdılar. Elə bir döyüş olmadı ki, hərbçilərimiz qələbə qazanmasınlar, elə bir cəbhə olmadı ki, düşməni məhv etməsinlər. Hər bir döyüş, hər bir əməliyyat Azərbaycan Ordusunun gücünün təcəssümü kimi yadda qaldı. Düşməni döyüş meydanında diz çökdürən ordumuz hər birimizə əvəzolunmaz məğrurluq hissi yaşatdı. "Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub, qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik", - deyə Prezident İlham Əliyev bildirib.

Vətən müharibəsində qalibiyyət Ulu Öndər Heydər Əliyev tərəfindən başladılan və Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı. Zaman göstərdi ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı ordu quruculuğu sağlam təməllərə əsaslanıb. İkinci Qarabağ müharibəsi təsdiq etdi ki, Prezident İlham Əliyev 2003-cü ildən sonra müdrikcəsinə və uzaqgörənliklə ordumuzun döyüş imkanlarını ən yüksək səviyyəyə çatdırıb. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi, hərbi islahatların effektivliyi döyüş meydanında təcəssümünü tapdı.

Düşməni darmadağın edərək cəmi 44 günə torpaqlarımızı azad edən ordumuz bununla yanaşı, Vətən müharibəsində ənənəvi hərbi nəzəriyyələrdə dəyişikliklərə səbəb olan döyüş nümunələri yaratdı. Azərbaycan 44 gün ərzində müasir döyüş əməliyyatlarının necə aparılmasının ən mükəmməl nümunəsini ortaya qoydu. Hansı ki bu təcrübə müharibədən dərhal sonra böyük hərbi gücə malik olan dövlətlərin dərin marağına səbəb oldu.

### Yeni hərbi islahatlar həm də Vətən müharibəsinin təhlilinə əsaslanır

Azərbaycan 2020-ci ildə aparılan 44 günlük Vətən müharibəsindən sonra da ordu quruculuğu, qoşunların döyüş hazırlığının daha da artırılması prosesini davam etdirir. Təbii ki, bu zaman 44 günlük müharibənin hər günü dərindən təhlil edilir. Məhz bundan irəli gələrək postmüharibə ili olan 2021-ci ildə ordunun döyüş imkanlarının artırılması istiqamətində islahatlar aparılıb. Hərbi quruculuq, bütün qoşun növlərinin texnika və silah-sursatla təchizatının modernləşdirilməsi, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması üçün hərbi sahəyə ayrılan xərclər artırılıb. Müharibədən sonra imzalanmış yeni müqavilələr əsasında Azərbaycana ən müasir hərbi texnikalar, silahlar gətirilib. 2022-ci ildə də ordumuzun döyüş qabiliyyətinin artırılması diqqət mərkəzində saxlanılıb. Xüsusilə qeyd edək ki, bu il artan büdcə gəlirlərinin bir qismi müdafiə və hərbi təhlükəsizliklə bağlı xərclərə yönəldiləcək.

O cümlədən işğaldan azad edilmiş ərazilərdə hərbi hissələr yaradılıb. Bu prosesdə də 44 günlük müharibənin gedişatı təhlil olunub. Bu təhlillər isə ordu quruculuğunun və yeni hərbi islahatların məhz real vəziyyətə əsaslanaraq həyata keçirilməsinə yol açıb. Azərbaycan Ordusu üçün yenilik olan Komando briqadalarının yaradılması da yeni hərbi islahatların göstəricisidir. Yüksək döyüş hazırlığına malik bu hərbi hissələrin şəxsi heyəti istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Yeni Komando birliklərinin yaradılması ordumuzun gücünü böyük dərəcədə artırıb.

İlk Komando hərbi hissəsi ötən il Hadrutda yaradılıb. Ötən ayın 26-da, Silahlı Qüvvələr Günündə isə Kəlbəcər rayonunda Prezident İlham Əliyevin iştirakı ilə növbəti Komando hərbi hissəsinin açılışı olub. Bu hərbi hissənin yaradılması bir daha göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir. "Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək".

Ali Baş Komandan növbəti Komando hərbi hissələrinin açılmasının nəzərdə tutulduğunu da bildirdi. Bununla yanaşı, digər hərbi hissələrin yaradılması prosesi də davam etdirilir. Vətən müharibəsində öz tarixi missiyasını layiqincə yerinə yetirən ordumuzun döyüş qabiliyyəti, gücü daha da artırılır. Eyni zamanda şəxsi heyətin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də sağlamlıqlarının qorunması istiqamətində islahatlar həyata keçirilir, müasir standartlara cavab verən hərbi infrastruktur qurulur.

Artan döyüş imkanlarımız həm də Ermənistandakı revanşistlərə xəbərdarlıqdır. Prezident İlham Əliyevin dediyi kimi: "Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İqtisadi güc və siyasi iradənin qətiyyəti

## İlham Əliyev Böyük qayıdış üçün Qarabağ və Şərqi Zəngəzurda mükəmməl həyat şəraiti yaradır

Bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır.

Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır.

Hazırda Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da böyük tikinti-quruculuq işləri həyata keçirilməkdədir. Müharibədən ötən müddət ərzində bu iki iqtisadi rayonun müxtəlif ərazilərində lazımi infrastrukturlar yaradılıb və Böyük qayıdışa start verilməsi üçün mühüm işlər görülüb. Hazırda bölgədə quruculuq sürətlə davam etdirilir. Artıq Qarabağ və Şərqi Zəngəzur sakinlərini qarşılamağa hazırlaşır. Azərbaycan isə Vətən müharibəsinin hər günündə olduğu kimi, yeni-yeni tarixi səhifələr yazır.

### İlin sonuna qədər 8 yol infrastrukturu tam hazır vəziyyətdə olacaq

Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də gediş-gəliş baxımından yolların inşası təxirə salınmadan həyata keçirilir. Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına işğaldan azad edilmiş ərazilərimizdə 15 avtomobil yolunun tikinti işləri davam etdirilir.

Bu il Füzuli-Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yollarının istifadəyə verilməsi planlaşdırılır. İlin sonuna qədər 8 yol infrastrukturu tam hazır vəziyyətdə olacaq.

Bundan başqa, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Ağdam-Füzuli, Əhmədbəyli-Füzuli-Şuşa, Əhmədbəyli-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Kəlbəcər-Laçın, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yollarının inşası da sürətlə davam etdirilir.

Həmin layihələrin və xüsusən də ən mühüm tunellərin tikildiyi ərazi Kəlbəcər və Laçına gedən yolların üzərindədir. Burada mühüm layihələrdən biri də Göygöllə Kəlbəcəri birləşdirən və uzunluğu 81 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu yoludur. Avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-4 hərəkət zolaqlı olmaqla, birinci və ikinci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 12 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib. Bu tunel dünyanın ən uzun tunellərindən biri olacaq.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılıb. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir.

Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Bu yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Həm Şərqi Zəngəzurda, həm də Qarabağda yalnız yol təsərrüfatına aid olan genişmiqyaslı işlər Azərbaycanın iqtisadi qüdrətinin, bu sahədəki təcrübəsinin göstəricisidir.







### Daimi enerji təminatı, "yaşıl enerji" zonası

Vətən müharibəsindən sonra İlham Əliyev işğaldan azad edilmiş ərazilərin qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilib. Artıq demək olar ki, "Azərenerji" tərəfindən əksər şəhər və rayonlarda 110/35/10 kilovoltluq yarımstansiyalar inşa edilib.

İşğaldan azad edilmiş ərazilərdə ümumilikdə 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya tikilib. Ötən ilin mayında "Şuşa", iyunda "Füzuli" və "Şükürbəyli", avqustda "Kəlbəcər", oktyabrda "Cəbrayıl", "Zəngilan" və "Qubadlı" yarımstansiyaları işə salınıb. Bu il fevral ayının 13-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının açılışı olub. Ağdamda "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzi də fəaliyyətə başlayıb.

Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş, müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.

Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimləmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir. Ölkə üzrə 2500 kilometr məsafədə çəkilən optik kabel şəbəkəsi üzərindən qurulan yeni sistem vasitəsilə nəinki Qarabağın, bütövlükdə Azərbaycanın enerji sistemi əhatə olunur. Rəqəmsal İdarəetmə Mərkəzindən obyektlərin monitorinqi aparılmaqla, parametrlərdə düzəlişlər edilməsi imkanı yaradılıb. Bu da serverlərin, o cümlədən digər şəbəkə aktivlərinin istismarı üzrə məlumat axınına nəzarət və onun idarə olunmasını mümkün edir. Yeni tətbiq olunan elektron texniki pasportlaşma nəticəsində mərkəzdən "Azərenerji"nin struktur tərkibinə daxil olan istənilən müəssisənin nəzdindəki avadanlığın texniki göstəricilərinə və formullarına nəzarət etmək mümkündür.

Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulub və tam rəqəmsallaşdırılıb. Bu ərazilərdə eləcə də 365 kilometr məsafədə ikidövrəli olmaqla 10 istiqamətdə yüksəkgərginlikli 110 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Həmçinin işğaldan azad edilmiş ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" kiçik su-elektrik stansiyaları (KSES) tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovatsaatdan çox elektrik enerjisi istehsal olunub.

Xatırladaq ki, keçən il 4 su-elektrik stansiyası istifadəyə verilib, bu il isə 5 su-elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücünü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Əksər KSES-lər isə Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə yerləşdiyi şəhər və rayonda olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan fəaliyyət göstərir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

"Azərenerji"nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, Dördüncü Sənaye İnqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.

### Zəngəzur dəhlizi və yeni layihələrin icrası üçün dövlət büdcəsindən 4 milyard 870 milyon manat vəsait ayrılıb

Prezidentin tapşırıqlarına uyğun olaraq, "Azərsu" tərəfindən işğaldan azad edilmiş ərazilərdə su təchizatı sistemlərinin bərpası və yenidən qurulması istiqamətində işlər davam etdirilərək əksər şəhər və rayonlarda təxirəsalınmaz tədbirlər görülüb. Belə ki, şəhər və rayonlara, kəndlərə suyun verilməsi, hərbi və mülki təyinatlı obyektlərin su təchizatı təmin edilib.

Rayonların ərazilərində xidməti vəzifələrini yerinə yetirən şəxsi heyətin, eləcə də tikinti-quraşdırma işlərinə cəlb olunmuş mülki əhalinin dayanıqlı içməli su təminatı məqsədilə fasiləsiz xidmət təşkil edilib. Hazırda yüksək dağlıq ərazilərdə yeni su mənbələrinin axtarışları davam etdirilir.

Bütün bu layihələr onu deməyə əsas verir ki, Azərbaycan iqtisadi qüdrətinə arxalanaraq Qarabağ və Şərqi Zəngəzuru yenidən qurur. İlyarım böyük zaman kəsiyi deyil, lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Öz doğma yerlərinə qayıdacaq vətəndaşlarımız üçün indi ən mükəmməl həyat şəraiti yaradılır.

Hər kəsə bəllidir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdı. 2022-ci ilin dövlət büdcəsində də bu həcmdə vəsait nəzərdə tutulmuşdu. Lakin ötən ay dövlət büdcəsinin gəlir və xərcləri artırılıb. Artan büdcə gəlirlərinin 470 milyon manatı işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilib. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

Tarixi Zəngəzur dəhlizinin açılmasına çox az vaxt qalır. Azərbaycan bu istiqamətdə üzərinə düşən bütün işləri başa çatdırmaq üzrədir. Dəhlizin bir parçası olan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin tikintisinin böyük hissəsi yekunlaşıb. Dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 km təşkil edir. Tikinti işləri 3 mərhələdə aparılır. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 km, ikinci mərhələ Soltanlı, Qumlaq stansiyalarını əhatə etməklə 55 km, üçüncü mərhələ isə Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 km təşkil edir. Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır.

Ötən ilin oktyabr ayının 26-da təməli qoyulan, Zəngəzur dəhlizinin bir parçası hesab edilən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam etdirilir. Uzunluğu 123,8 km olan bu yol 4-6 hərəkət zolaqlı olacaq.

Dəhlizin funksiyasını dəyərləndirərkən İlham Əliyev vurğulayıb ki, Azərbaycan bu dəhlizə sadəcə olaraq dəmir yolu kimi baxmır. Çünki bu dəhlizdən həm dəmir yolu, həm avtomobil yolu keçəcək. Növbəti mərhələdə oradan Naxçıvana elektrik xətlərinin çəkilməsi də nəzərdə tutulub. Eyni zamanda qaz xətləri də dəhlizdən keçə bilər. Yəni Prezidentin də söylədiyi kimi, Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir.

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, tarixi torpaqlarımıza həyat qayıdır. Onilliklər boyu yurd həsrəti ilə yaşayan vətəndaşlarımızın qısa müddət ərzində öz dədə-baba torpaqlarına qovuşdurulması üçün böyük işlər həyata keçirilir və Cocuq Mərcanlıdan başlanan Böyük qayıdışın növbəti mərhələsi "ağıllı kənd" layihəsinin tətbiq edildiyi Zəngilanın Ağalı kəndi oldu.

Bu il mayın 27-də Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində Prezident İlham Əliyev bildirdi ki, Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi məhz müstəqilliyimizin möhkəmlənməsinin bariz nümunəsidir. Bu da hər kəsdə qürur hissi yaradır ki, Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir və xalqın xoşbəxtliyi üçün əsas amildir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şuşada Vaqif Poeziya Günləri başlayıb








Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə iyulun 14-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Vaqif Poeziya Günləri başlayıb.

Qırx illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra artıq ikinci dəfədir təşkil olunur.

AZƏRTAC xəbər verir ki, mədəniyyət və incəsənət xadimlərinin, Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin, gənc yazıçılar, şairlər və qazilərin iştirak etdikləri Poeziya Günləri çərçivəsində keçirilən ilk tədbir "Qarabağ" mehmanxanasının qarşısında təşkil olunan kitab sərgisidir.

Sərgini Azərbaycan Yazıçılar Birliyinin üzvü İlqar Fəhmi açıb. Xalq yazıçısı Anar qonaqları salamladıqdan sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid bildirib ki, sərgidə 100-dən çox şair və yazıçının kitabları nümayiş etdirilir. Kitab sərgisində ayrı-ayrı yazıçıların kitablarının təqdimatı keçirilib.

Qeyd edilib ki, əvvəlcə Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanan "Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" və Şuşada keçirilmiş Vaqif Poeziya Günləri barədə "Bütün yollar Şuşaya aparır..." kitablarının təqdimatı olub.

"Qarabağ dastanı, otuz ilin həsrəti - 44 günün Zəfəri" kitabı Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın təşəbbüsü ilə Qələbəmizin ilk günlərindən hazırlanmağa başlanıb. Kitabda azad olunmuş Qarabağdan olan hər bir yazıçı öz rayonları haqqında xatirələrini yazıb. Məsələn, Ramiz Rövşən Qubadlıdan, Seyran Səxavət Füzulidən, Elçin Hüseynbəyli Cəbrayıldan, Aqil Abbas Ağdamdan yazıblar. Eyni zamanda bu kitabda Qarabağın tarixi, ədəbiyyatı, musiqi adamları haqqında zəngin məlumatlar da yer alıb. Həmçinin şairlərin Qarabağa həsr olunmuş şeirlərinə, ötən il "Xarıbülbül" musiqi festivalından sonra yazılmış publisist məqalələrə də kitabda yer verilib. Kitabın "Ön söz"ünün müəllifi və redaktoru isə Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məciddir.

Sərgidə iştirak edən yazıçılar və şairlər Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş kitablar nəşr etdiriblər.

Tədbirdə Elçin İsgəndərzadə, Elşən Əzim, Arzu Əsəd, İntiqam Yaşar və digərləri öz kitabları haqqında danışıb, şeirlər səsləndiriblər. Şair və publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ramiz Qusarçaylı Şuşaya həsr olunmuş şeirini oxuyub və öz təəssüratlarını bölüşüb.

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilməkdədir.

# Tədbir dahi şairin məqbərəsi önündə davam edib







Şuşada keçirilən Vaqif Poeziya Günləri iyulun 14-də dahi Azərbaycan şairinin muzey-məqbərə kompleksinin önündə davam edib.

AZƏRTAC xəbər verir ki, Vaqif Poeziya Günlərinin tarixini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb. Qeyd edib ki, 30 il ərzində əsarət altında qalan Şuşa artıq azaddır.

O, Şuşa azad ediləndən bəri bu şəhərdə keçirilən tədbirlər barədə danışıb. Həmçinin Xalq yazıçısı Molla Pənah Vaqifin həyat və yaradıcılığına nəzər salıb. Azərbaycan Yazıçılar Birliyinin sədri dahi şair Vaqifin şeirlərini səsləndirib və xatirələrini bölüşüb.

Xalq yazıçısı deyib: "Müzəffər Azərbaycan Ordusuna, ata vəsiyyətini layiqincə yerinə yetirən Prezident İlham Əliyevə, Şuşaya, xalqımıza eşq olsun!"

Sonra çıxış edən Xalq yazıçısı Çingiz Abdullayev uşaqlığının Şuşada keçdiyini bildirib. Deyib ki, bütün Azərbaycan xalqı uzun illər idi bu günü səbirsizliklə gözləyirdi.

"44 günlük Vətən müharibəsində şəhid olanların çoxu Qarabağı görməmişdi. Onlar Azərbaycan Prezidentinə, dövlətimizə inanaraq bu yolda can qoydular. Məhz onların sayəsində biz bu gün çox böyük bayrama toplaşmışıq",- deyə Çingiz Abdullayev vurğulayıb.

Daha sonra tamaşaçılar Azərbaycan muğamlarını dinləyiblər.

"İgidlərin sözü" kompozisiyası zamanı Vətən müharibəsi iştirakçısı olmuş şairlərin muğamın müşayiəti ilə çıxışları olub.

Sonda görkəmli şairlərin "Odlar yurdum Azərbaycan" - vətənpərvərlik və qəhrəmanlıq mövzusunda şeirləri səsləndirilib.

# Vaqif Poeziya Günləri çərçivəsində Cıdır düzündə konsert-tamaşa təqdim olunub





Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində iyulun 14-də Cıdır düzündə konsert-tamaşa təqdim olunub.

AZƏRTAC xəbər verir ki, "Əsrlərin sədası" adlı konsert-tamaşada dahi Füzuli, Xəqani, Xurşidbanu Natəvan, İmadəddin Nəsimi, Məhsəti Gəncəvi, Mir Möhsün Nəvvab, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Nizami Gəncəvi, Şah İsmayıl Xətai kimi görkəmli Azərbaycanın ədiblərinin obrazları canlandırılıb.

Musiqili tamaşada Xalq artistləri Gülyanaq və Gülyaz Məmmədovalar, Samir Cəfərov, Əməkdar artistlər Fərqanə Qasımova, Qoçaq Əsgərov, Nuriyyə Hüseynova və digər incəsənət xadimləri çıxış ediblər.

Bununla da Vaqif Poeziya Günlərinin birinci gününə yekun vurulub.

# Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası gəlirlər 26 396 285,0 min manat, xərclər 27 422 420,2 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| **2.1.** | **Gəlirlərin mənbələri** | **26 396 285024** |
| 2.1.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 194 649 909 |
| 2.1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 958 399 143 |
| 2.1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 45 702 745 |
| 2.1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 211 315 920 |
| 2.1.5. | Əlavə dəyər vergisi | 5 214 479 186 |
| 2.1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 930 734 311 |
| 2.1.6. | Sadələşdirilmiş vergi | 299 734 221 |
| 2.1.7. | Aksizlər | 1 105 783 182 |
| 2.1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 163 115 774 |
| 2.1.8. | Yol vergisi | 119 107 309 |
| 2.1.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 43 622 627 |
| 2.1.9. | Mədən vergisi | 138 374 936 |
| 2.1.10. | Gömrük rüsumları | 1 205 496 493 |
| 2.1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 154 463 503 |
| 2.1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 481 069 |
| 2.1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 127 024 190 |
| 2.1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 11 350 000 000 |
| 2.1.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 16 214 784 |
| 2.1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 7 359 852 |
| 2.1.17. | Dövlət rüsumu | 198 459 867 |
| 2.1.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 18 875 514 |
| 2.1.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 612 933 487 |
| 2.1.20. | Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert | 880 000 000 |
| 2.1.21. | Mərkəzi Bankın mənfəətindən ayırmalar | 250 000 000 |
| 2.1.22. | Sair daxilolmalar | 285 429 714 |
| **2.2.** | **Xərclərin istiqamətləri** | **27 422 420 195** |
| 2.2.1. | Ümumi dövlət xidmətləri | 3 973 963 634 |
| 2.2.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünü idarəetmə orqanlarının fəaliyyəti | 939 779 632 |
| 2.2.1.2. | beynəlxalq münasibətlər | 253 798 003 |
| 2.2.1.3. | xarici yardımlar | 31 699 357 |
| 2.2.1.4. | elm | 151 766 479 |
| 2.2.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 13 843 829 |
| 2.2.1.6. | büdcələrarası transfertlər | 384 321 079 |
| 2.2.1.6.1. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 044 730 |
| 2.2.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 145 349 |
| 2.2.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 378 131 000 |
| 2.2.1.7. | dövlət borcu | 2 198 755 255 |
| 2.2.2. | Müdafiə və milli təhlükəsizlik | 4 541 612 896 |
| 2.2.2.1. | müdafiə qüvvələri | 1 838 523 883 |
| 2.2.2.2. | milli təhlükəsizlik | 253 823 599 |
| 2.2.2.3. | sərhəd xidməti | 341 524 683 |
| 2.2.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 3 364 671 |
| 2.2.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 2 104 376 060 |
| 2.2.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 032 975 891 |
| 2.2.3.1. | məhkəmə hakimiyyəti | 100 913 195 |
| 2.2.3.2. | hüquq mühafizə | 1 556 879 983 |
| 2.2.3.3. | prokurorluq | 99 442 519 |
| 2.2.3.4. | hüquqi yardım | 4 519 707 |
| 2.2.3.5. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 271 220 487 |
| 2.2.4. | Təhsil | 3 092 183 164 |
| 2.2.4.1. | məktəbəqədər təhsil | 275 420 372 |
| 2.2.4.2. | ümumi təhsil | 1 687 750 038 |
| 2.2.4.3. | peşə təhsili | 39 011 693 |
| 2.2.4.4. | orta ixtisas təhsili | 68 337 907 |
| 2.2.4.5. | ali təhsil | 369 898 214 |
| 2.2.4.6. | əlavə təhsil | 2 706 055 |
| 2.2.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 4 489 977 |
| 2.2.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 644 568 908 |
| 2.2.5. | Səhiyyə | 1 378 547 017 |
| 2.2.5.1. | poliklinikalar və ambulatoriyalar | 1 378 143 |
| 2.2.5.2. | xəstəxanalar | 138 754 343 |
| 2.2.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 1 671 022 |
| 2.2.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 236 743 509 |
| 2.2.6. | Sosial müdafiə və sosial təminat | 3 164 225 417 |
| 2.2.6.1. | sosial müdafiə | 220 957 928 |
| 2.2.6.2. | sosial təminat | 4 306 622 |
| 2.2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 20 020 |
| 2.2.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 2 938 940 847 |
| 2.2.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 307 408 256 |
| 2.2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 372 141 688 |
| 2.2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 162 296 198 |
| 2.2.7.2. | televiziya, radio və nəşriyyat | 66 623 233 |
| 2.2.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 43 608 772 |
| 2.2.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid edilən digər müəssisə və tədbirlər | 99 613 485 |
| 2.2.8. | Mənzil və kommunal təsərrüfatı | 217 348 498 |
| 2.2.8.1. | mənzil | 31 793 253 |
| 2.2.8.2. | kommunal təsərrüfatı | 87 348 005 |
| 2.2.8.3. | su təsərrüfatı | 17 473 161 |
| 2.2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 80 734 079 |
| 2.2.9. | Kənd təsərrüfatı | 910 402 067 |
| 2.2.9.1. | kənd təsərrüfatı tədbirləri | 474 047 098 |
| 2.2.9.2. | baytarlıq | 28 987 297 |
| 2.2.9.3. | meliorasiya | 400 601 782 |
| 2.2.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 6 765 890 |
| 2.2.10. | Ətraf mühitin mühafizəsi | 245 972 221 |
| 2.2.10.1. | bioloji zənginliyin qorunması | 5 838 063 |
| 2.2.10.2. | hidrometeorologiya tədbirləri | 8 600 698 |
| 2.2.10.3. | meşə təsərrüfatı | 11 425 269 |
| 2.2.10.4. | balıqçılıq və ovçuluq | 1 218 522 |
| 2.2.10.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 214 585 813 |
| 2.2.10.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 4 303 856 |
| 2.2.11. | İqtisadi fəaliyyət | 5 500 595 023 |
| 2.2.11.1. | nəqliyyat və rabitə | 180 807 632 |
| 2.2.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 37 217 868 |
| 2.2.11.3. | tikinti və şəhərsalma | 4 684 900 085 |
| 2.2.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 505 523 416 |
| 2.2.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 2 178 371 626 |
| 2.2.11.4. | geodeziya və faydalı qazıntılar | 13 881 232 |
| 2.2.11.5. | yanacaq və enerji kompleksi | 1 900 000 |
| 2.2.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000 |
| 2.2.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 580 388 206 |
| 2.2.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 982 411 804 |
| 2.2.12.1. | ehtiyat fondları | 1 150 533 270 |
| 2.2.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 470 122 696 |
| 2.2.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 680 410 574 |
| 2.2.12.2. | məqsədli büdcə fondları | 290 000 000 |
| 2.2.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 290 000 000 |
| 2.2.12.3. | valyuta konvertasiyası | 2 691 739 |
| 2.2.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 539 186 795 |
| 2.2.12.4.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000 |
| 2.2.12.4.2. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 519 186 795 |
| 2.2.13. | 2021-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 10 040 875 |
| **2.3.** | **Dövlət büdcəsinin kəsiri** | **1 026 135 171** |
| 2.4. | **2022-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı** | **1 268 830 437** |

**Maddə 3.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 iyun 2022-ci il*

# "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.2-ci bəndi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləği aşağıdakı qaydada təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **3 973 963 634** |
| **1.1.1.** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **939 779 632** |
| 1.1.1.1. | Azərbaycan Respublikasının Milli Məclisi | 38 491 161 |
| 1.1.1.2. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 144 723 858 |
| 1.1.1.3. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 23 036 874 |
| 1.1.1.4. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 7 529 208 |
| 1.1.1.5. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 737 304 |
| 1.1.1.6. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 543 786 |
| 1.1.1.7. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 576 418 |
| 1.1.1.8. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 478 335 |
| 1.1.1.9. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 754 987 |
| 1.1.1.10. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 4 037 586 |
| 1.1.1.11. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 9 857 384 |
| 1.1.1.12. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 22 602 567 |
| 1.1.1.13. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 10 277 045 |
| 1.1.1.14. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 40 477 876 |
| 1.1.1.15. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 14 269 716 |
| 1.1.1.16. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 2 832 191 |
| 1.1.1.17. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 17 384 615 |
| 1.1.1.18. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 949 519 |
| 1.1.1.19. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 1 741 066 |
| 1.1.1.20. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 19 218 449 |
| 1.1.1.21. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 9 796 484 |
| 1.1.1.22. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi | 471 590 |
| 1.1.1.23. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 2 305 923 |
| 1.1.1.24. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 6 584 474 |
| 1.1.1.25. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 2 063 629 |
| 1.1.1.26. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 4 173 547 |
| 1.1.1.27. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti | 2 284 588 |
| 1.1.1.28. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 343 309 |
| 1.1.1.29. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Dəniz Agentliyi | 1 788 469 |
| 1.1.1.30. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 937 380 |
| 1.1.1.31. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 131 522 |
| 1.1.1.32. | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 3 636 502 |
| 1.1.1.33. | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 624 935 |
| 1.1.1.34. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 12 145 245 |
| 1.1.1.35. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 705 409 |
| 1.1.1.36. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 980 297 |
| 1.1.1.37. | Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi | 2 660 166 |
| 1.1.1.38. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 3 588 714 |
| 1.1.1.39. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 3 844 521 |
| 1.1.1.40. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi | 777 422 |
| 1.1.1.41. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 22 368 303 |
| 1.1.1.42. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 877 047 |
| 1.1.1.43. | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 1 532 007 |
| 1.1.1.44. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 790 224 |
| 1.1.1.45. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 7 796 652 |
| 1.1.1.46. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 34 925 662 |
| 1.1.1.47. | Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi | 99 019 |
| 1.1.1.48. | Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 168 044 |
| 1.1.1.49. | Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 180 076 |
| 1.1.1.50. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 134 981 017 |
| 1.1.1.51. | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 16 631 343 |
| 1.1.1.51.1. | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) | 3 524 818 |
| 1.1.1.51.2. | Azərbaycan Respublikasının Hesablama Palatası | 7 422 562 |
| 1.1.1.51.3. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 3 399 713 |
| 1.1.1.51.4. | Məhkəmə-Hüquq Şurası | 829 670 |
| 1.1.1.51.5. | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | 1 454 580 |
| 1.1.1.52. | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 9 912 313 |
| 1.1.1.53. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 483 491 |
| 1.1.1.54. | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 2 430 000 |

*Ardı 7-ci səh.*

# "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 6-cı səh.*

| | | |
|---|---|---|
| 1.1.1.55. | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 1 245 803 |
| 1.1.1.56. | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 270 994 560 |
| **1.1.2.** | **Beynəlxalq münasibətlər** | **253 798 003** |
| 1.1.2.1. | Beynəlxalq və regional təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlıq | 23 764 663 |
| 1.1.2.2. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 117 049 653 |
| 1.1.2.3. | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 6 210 790 |
| 1.1.2.4. | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 106 772 897 |
| 1.1.2.4.1. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 8 894 210 |
| 1.1.2.4.2. | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 97 878 687 |
| **1.1.3.** | **Xarici yardımlar** | **31 699 357** |
| **1.1.4.** | **Elm** | **151 766 479** |
| 1.1.4.1. | Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması | 101 031 379 |
| 1.1.4.2. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 3 007 148 |
| 1.1.4.3. | "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi | 1 596 989 |
| 1.1.4.4. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 6 053 439 |
| 1.1.4.5. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1 113 216 |
| 1.1.4.6. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1 076 845 |
| 1.1.4.7. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 14 672 787 |
| 1.1.4.8. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 7 855 198 |
| 1.1.4.9. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 190 000 |
| 1.1.4.10. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 7 448 252 |
| 1.1.4.11. | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1 456 821 |
| 1.1.4.12. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 6 264 405 |
| **1.1.5.** | **Seçkilərin keçirilməsi və statistika tədbirləri** | **13 843 829** |
| 1.1.5.1. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 1 903 330 |
| 1.1.5.2. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 11 940 499 |
| 1.1.5.2.1. | Seçici siyahılarının dəqiqləşdirilməsi | 662 772 |
| 1.1.5.2.2. | Dairə seçki komissiyalarının saxlanılması | 11 277 727 |
| **1.1.6.** | **Büdcələrarası transfertlər** | **384 321 079** |
| 1.1.6.1. | Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya | 5 044 730 |
| 1.1.6.2. | Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya | 1 145 349 |
| 1.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 378 131 000 |
| **1.1.7.** | **Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (dövlət borcu)** | **2 198 755 255** |
| **1.2.** | **Müdafiə və milli təhlükəsizlik** | **4 541 612 896** |
| **1.2.1.** | **Müdafiə qüvvələri** | **1 838 523 883** |
| 1.2.1.1. | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 1 574 619 012 |
| 1.2.1.2. | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 27 725 400 |
| 1.2.1.3. | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 227 833 786 |
| 1.2.1.4. | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 8 345 685 |
| **1.2.2.** | **Milli təhlükəsizlik** | **253 823 599** |
| 1.2.2.1. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | 200 001 115 |
| 1.2.2.2. | Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti | 53 822 484 |
| **1.2.3.** | **Sərhəd xidməti** | **341 524 683** |
| 1.2.3.1. | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 281 558 389 |
| 1.2.3.2. | Sərhəd xidməti sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 59 966 294 |
| **1.2.4.** | **Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar** | **3 364 671** |
| 1.2.4.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 3 364 671 |
| **1.2.5.** | **Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər** | **2 104 376 060** |
| 1.2.5.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 4 405 895 |
| 1.2.5.2. | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 2 099 970 165 |
| **1.3.** | **Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq** | **2 032 975 891** |
| **1.3.1.** | **Məhkəmə hakimiyyəti** | **100 913 195** |
| 1.3.1.1. | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | 8 673 421 |
| 1.3.1.2. | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 12 937 414 |
| 1.3.1.3. | Bakı Apellyasiya Məhkəməsi | 8 482 517 |
| 1.3.1.4. | Sumqayıt Apellyasiya Məhkəməsi | 3 039 992 |
| 1.3.1.5. | Gəncə Apellyasiya Məhkəməsi | 2 587 902 |
| 1.3.1.6. | Şirvan Apellyasiya Məhkəməsi | 2 622 213 |
| 1.3.1.7. | Şəki Apellyasiya Məhkəməsi | 1 859 565 |
| 1.3.1.8. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr) | 60 261 671 |
| 1.3.1.9. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 448 500 |
| **1.3.2.** | **Hüquq mühafizə** | **1 556 879 983** |
| 1.3.2.1. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 671 727 621 |
| 1.3.2.2. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 220 113 730 |
| 1.3.2.3. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 41 148 026 |
| 1.3.2.4. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 126 318 787 |
| 1.3.2.4.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 83 223 363 |
| 1.3.2.4.2. | Penitensiar fəaliyyəti | 43 095 424 |
| 1.3.2.5. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 290 037 349 |
| 1.3.2.6. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 39 650 850 |
| 1.3.2.7. | Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti | 112 456 370 |
| 1.3.2.8. | Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | 14 348 355 |
| 1.3.2.9. | Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi | 20 754 154 |
| 1.3.2.10. | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 16 021 298 |
| 1.3.2.10.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 46 395 |
| 1.3.2.10.2. | Miqrasiya fəaliyyəti | 15 974 903 |
| 1.3.2.11. | Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti | 1 400 486 |
| 1.3.2.12. | Hüquq mühafizə orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 2 836 957 |
| 1.3.2.13. | Hüquq mühafizə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 66 000 |
| **1.3.3.** | **Prokurorluq** | **99 442 519** |
| 1.3.3.1. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 81 835 126 |
| 1.3.3.2. | Azərbaycan Respublikasının Hərbi Prokurorluğu | 17 319 093 |
| 1.3.3.3. | Prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 288 300 |
| **1.3.4.** | **Hüquqi yardım** | **4 519 707** |
| 1.3.4.1. | Azərbaycan Respublikasının Vəkillər Kollegiyası | 4 513 768 |
| 1.3.4.2. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 5 939 |
| **1.3.5.** | **Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət** | **271 220 487** |
| 1.3.5.1. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Probasiya Xidməti üçün elektron nəzarət vasitələrinin alınması) | 6 899 520 |
| 1.3.5.2. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 264 320 967 |
| **1.4.** | **Təhsil** | **3 092 183 164** |
| **1.4.1.** | **Məktəbəqədər təhsil** | **275 420 372** |
| **1.4.2.** | **Ümumi təhsil** | **1 687 750 038** |
| 1.4.2.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1 682 689 728 |
| 1.4.2.2. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 2 645 116 |
| 1.4.2.3. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 1 591 338 |
| 1.4.2.4. | Bakı Dövlət Universiteti | 823 856 |
| **1.4.3.** | **Peşə təhsili** | **39 011 693** |
| 1.4.3.1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 686 555 |
| 1.4.3.2. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 37 427 847 |
| 1.4.3.3. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 845 299 |
| 1.4.3.4. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 51 992 |
| **1.4.4.** | **Orta ixtisas təhsili** | **68 337 907** |
| 1.4.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 10 613 892 |
| 1.4.4.2. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 55 012 282 |
| 1.4.4.3. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 462 736 |
| 1.4.4.4. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 243 495 |
| 1.4.4.5. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 1 005 502 |
| **1.4.5.** | **Ali təhsil** | **369 898 214** |
| 1.4.5.1. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 1 847 643 |
| 1.4.5.2. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 2 108 736 |
| 1.4.5.3. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 943 818 |
| 1.4.5.4. | ADA Universiteti | 19 306 586 |
| 1.4.5.5. | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 12 364 859 |
| 1.4.5.6. | İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı | 7 328 959 |
| 1.4.5.7. | Milli Aviasiya Akademiyası | 12 909 000 |
| 1.4.5.8. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 310 830 460 |
| 1.4.5.9. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 2 258 153 |
| **1.4.6.** | **Əlavə təhsil** | **2 706 055** |
| 1.4.6.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 479 934 |
| 1.4.6.2. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 226 121 |
| **1.4.7.** | **Təhsil sahəsində tətbiqi tədqiqatlar** | **4 489 977** |
| 1.4.7.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 2 898 701 |
| 1.4.7.2. | Bakı Dövlət Universiteti | 826 793 |
| 1.4.7.3. | Azərbaycan Tibb Universiteti | 764 483 |
| **1.4.8.** | **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **644 568 908** |
| 1.4.8.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 448 792 508 |
| 1.4.8.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 15 121 591 |
| 1.4.8.3. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 7 424 522 |
| 1.4.8.4. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 551 453 |
| 1.4.8.5. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 3 905 116 |
| 1.4.8.6. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 139 798 448 |
| 1.4.8.7. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 248 016 |
| 1.4.8.8. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 1 206 526 |
| 1.4.8.9. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 1 870 436 |
| 1.4.8.10. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 711 913 |
| 1.4.8.11. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 4 562 046 |
| 1.4.8.12. | Yerli icra hakimiyyəti orqanları | 3 033 399 |
| 1.4.8.13. | Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 16 352 113 |
| 1.4.8.14. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 990 821 |
| **1.5.** | **Səhiyyə** | **1 378 547 017** |
| **1.5.1.** | **Poliklinikalar və ambulatoriyalar** | **1 378 143** |
| 1.5.1.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 378 143 |
| **1.5.2.** | **Xəstəxanalar** | **138 754 343** |
| 1.5.2.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 72 641 447 |
| 1.5.2.2. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 8 202 371 |
| 1.5.2.3. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 981 022 |
| 1.5.2.4. | Azərbaycan Tibb Universiteti | 1 169 573 |
| 1.5.2.5. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 5 960 106 |
| 1.5.2.6. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 43 312 134 |
| 1.5.2.7. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 6 487 690 |
| **1.5.3.** | **Səhiyyə sahəsində tətbiqi tədqiqatlar** | **1 671 022** |
| 1.5.3.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 97 536 |
| 1.5.3.2. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 759 031 |
| 1.5.3.3. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 814 455 |
| **1.5.4.** | **Səhiyyə sahəsində proqramlar və digər xidmətlər** | **1 236 743 509** |
| 1.5.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 131 558 010 |
| 1.5.4.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 13 931 606 |
| 1.5.4.3. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 082 065 |
| 1.5.4.4. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 2 877 067 |
| 1.5.4.5. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 11 882 659 |
| 1.5.4.6. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 8 487 318 |
| 1.5.4.7. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 3 438 678 |
| 1.5.4.8. | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti | 8 935 563 |
| 1.5.4.9. | Qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması və icbari tibbi sığorta tətbiq olunmayan inzibati ərazi vahidləri üzrə səhiyyə müəssisələrinin saxlanılması xərcləri | 1 044 728 700 |
| 1.5.4.10. | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 6 821 843 |
| **1.6.** | **Sosial müdafiə və sosial təminat** | **3 164 225 417** |
| **1.6.1.** | **Sosial müdafiə** | **220 957 928** |
| 1.6.1.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 219 957 361 |
| 1.6.1.2. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 000 567 |
| **1.6.2.** | **Sosial təminat** | **4 306 622** |
| 1.6.2.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 181 697 |
| 1.6.2.2. | Yerli icra hakimiyyəti orqanları | 4 124 925 |
| **1.6.3.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar** | **20 020** |
| 1.6.3.1. | Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 20 020 |
| **1.6.4.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **2 938 940 847** |
| 1.6.4.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 134 966 715 |
| 1.6.4.2. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 354 373 421 |
| 1.6.4.3. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 432 463 |
| 1.6.4.4. | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 307 408 256 |
| 1.6.4.5. | Sosial müdafiə, pensiya və digər sosial təminat xərcləri | 59 618 958 |
| 1.6.4.6. | Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı | 267 474 |
| 1.6.4.7. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (paralimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 501 600 |
| 1.6.4.7.1. | Əqli pozuntusu olan idmançılar üzrə | 250 800 |
| 1.6.4.7.2. | Fiziki pozuntusu olan idmançılar üzrə | 250 800 |
| 1.6.4.8. | Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1 003 200 |
| 1.6.4.9. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 80 368 760 |
| **1.7.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **372 141 688** |
| **1.7.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **162 296 198** |
| 1.7.1.1. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 147 885 506 |
| 1.7.1.2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 455 621 |
| 1.7.1.3. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 655 253 |
| 1.7.1.4. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 194 885 |
| 1.7.1.5. | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 2 900 000 |
| 1.7.1.6. | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası | 6 346 404 |
| 1.7.1.7. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 667 703 |
| 1.7.1.8. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 188 151 |
| 1.7.1.9. | Yerli icra hakimiyyəti orqanları | 2 002 675 |
| **1.7.2.** | **Televiziya, radio və nəşriyyat** | **66 623 233** |
| 1.7.2.1. | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 34 143 426 |
| 1.7.2.2. | Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı | 17 020 679 |
| 1.7.2.3. | "Azərbaycan"Nəşriyyatı (dövlət sifarişlərinin yerinə yetirilməsi) | 1 928 750 |
| 1.7.2.4. | Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu | 4 136 719 |
| 1.7.2.5. | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya | 619 702 |
| 1.7.2.6. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 236 792 |

*Ardı 8-ci səh.*

# "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 7-ci səh.*

| | | |
|---|---|---|
| 1.7.2.7. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 8 513 043 |
| 1.7.2.8. | Radio və televiziya redaksiyalarının saxlanılması | 24 122 |
| **1.7.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **43 608 772** |
| 1.7.3.1. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 39 547 173 |
| 1.7.3.1.1. | Bədən tərbiyəsi və idmanın təşkili | 31 310 700 |
| 1.7.3.1.2. | Gənclər siyasəti | 8 236 473 |
| 1.7.3.2. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 877 811 |
| 1.7.3.3. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 3 183 788 |
| **1.7.4.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər** | **99 613 485** |
| 1.7.4.1. | Heydər Əliyev Mərkəzi | 10 403 518 |
| 1.7.4.2. | Azərbaycanda Atatürk Mərkəzi | 419 934 |
| 1.7.4.3. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 018 364 |
| 1.7.4.4. | Beynəlxalq Muğam Mərkəzi | 1 305 312 |
| 1.7.4.5. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 26 561 837 |
| 1.7.4.6. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 420 421 |
| 1.7.4.7. | Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu | 196 859 |
| 1.7.4.8. | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 5 769 085 |
| 1.7.4.9. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 6 274 599 |
| 1.7.4.10. | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 5 407 846 |
| 1.7.4.11. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 492 580 |
| 1.7.4.12. | Siyasi partiyalara verilən maliyyə yardımı | 3 793 716 |
| 1.7.4.13. | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 7 218 957 |
| 1.7.4.14. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 8 603 164 |
| 1.7.4.15. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 222 613 |
| 1.7.4.16. | Yerli icra hakimiyyəti orqanları | 1 391 862 |
| 1.7.4.17. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 19 473 537 |
| 1.7.4.18. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 639 281 |
| **1.8.** | **Mənzil və kommunal təsərrüfatı** | **217 348 498** |
| **1.8.1.** | **Mənzil** | **31 793 253** |
| 1.8.1.1. | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 31 793 253 |
| **1.8.2.** | **Kommunal təsərrüfatı** | **87 348 005** |
| 1.8.2.1. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 250 000 |
| 1.8.2.2. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 057 801 |
| 1.8.2.3. | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 26 000 000 |
| 1.8.2.4. | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 55 040 204 |
| **1.8.3.** | **Su təsərrüfatı** | **17 473 161** |
| 1.8.3.1. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 499 961 |
| 1.8.3.2. | "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 12 973 200 |
| **1.8.4.** | **Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər** | **80 734 079** |
| 1.8.4.1. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 2 999 482 |
| 1.8.4.2. | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 35 000 000 |
| 1.8.4.3. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 15 583 571 |
| 1.8.4.4. | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 27 151 026 |
| **1.9.** | **Kənd təsərrüfatı** | **910 402 067** |
| **1.9.1.** | **Kənd təsərrüfatı tədbirləri** | **474 047 098** |
| 1.9.1.1. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 37 088 342 |
| 1.9.1.2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 420 345 800 |
| 1.9.1.3. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 6 116 267 |
| 1.9.1.4. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 6 496 689 |
| 1.9.1.5. | Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 4 000 000 |
| **1.9.2.** | **Baytarlıq** | **28 987 297** |
| 1.9.2.1. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 28 987 297 |
| **1.9.3.** | **Meliorasiya** | **400 601 782** |
| 1.9.3.1. | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 400 601 782 |
| **1.9.4.** | **Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər** | **6 765 890** |
| 1.9.4.1. | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 6 765 890 |
| **1.10.** | **Ətraf mühitin mühafizəsi** | **245 972 221** |
| **1.10.1.** | **Bioloji zənginliyin qorunması** | **5 838 063** |
| 1.10.1.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 366 858 |
| 1.10.1.2. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 5 471 205 |
| **1.10.2.** | **Hidrometeorologiya tədbirləri** | **8 600 698** |
| 1.10.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 468 410 |
| 1.10.2.2. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 8 132 288 |
| **1.10.3.** | **Meşə təsərrüfatı** | **11 425 269** |
| 1.10.3.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 11 425 269 |
| **1.10.4.** | **Balıqçılıq və ovçuluq** | **1 218 522** |
| 1.10.4.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 218 522 |
| **1.10.5.** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **214 585 813** |
| 1.10.5.1. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 7 100 000 |
| 1.10.5.2. | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 33 000 000 |
| 1.10.5.3. | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 4 248 316 |
| 1.10.5.4. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 389 528 |
| 1.10.5.5. | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 169 847 969 |
| **1.10.6.** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **4 303 856** |
| 1.10.6.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 303 856 |
| **1.11.** | **İqtisadi fəaliyyət** | **5 500 595 023** |
| **1.11.1.** | **Nəqliyyat və rabitə** | **180 807 632** |
| 1.11.1.1. | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000 |
| 1.11.1.2. | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 39 167 500 |
| 1.11.1.3. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 3 128 906 |
| 1.11.1.4. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 10 766 476 |
| 1.11.1.5. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 959 325 |
| 1.11.1.6. | "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 27 300 000 |
| 1.11.1.7. | Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi | 2 998 452 |
| 1.11.1.8. | Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 2 000 000 |
| 1.11.1.9. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 43 995 950 |
| 1.11.1.10. | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 40 481 023 |
| **1.11.2.** | **İqtisadi və kommersiya fəaliyyəti** | **37 217 868** |
| 1.11.2.1. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 37 217 868 |
| **1.11.3.** | **Tikinti və şəhərsalma** | **4 684 900 085** |
| 1.11.3.1. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 005 043 |
| 1.11.3.2. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 505 523 416 |
| 1.11.3.3. | İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 2 178 371 626 |
| **1.11.4.** | **Geodeziya və faydalı qazıntılar** | **13 881 232** |
| 1.11.4.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 5 681 232 |
| 1.11.4.2. | Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi | 8 200 000 |
| **1.11.5.** | **Yanacaq və enerji kompleksi** | **1 900 000** |
| 1.11.5.1. | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1 900 000 |
| **1.11.6.** | **İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar** | **1 500 000** |
| 1.11.6.1. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 500 000 |
| **1.11.7.** | **İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər** | **580 388 206** |
| 1.11.7.1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 34 608 315 |
| 1.11.7.1.1. | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 2 803 399 |
| 1.11.7.1.2. | Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya blanklarının çap edilməsi | 31 196 389 |
| 1.11.7.1.3. | Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması | 608 527 |
| 1.11.7.2. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 309 680 |
| 1.11.7.3. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 44 728 106 |
| 1.11.7.3.1. | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 27 528 106 |
| 1.11.7.3.2. | Ölkə ərazisində yerquruluşu, torpaqların kadastrı işlərinin təşkili | 15 000 000 |
| 1.11.7.3.3. | Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması | 1 000 000 |
| 1.11.7.3.4. | "Qəbələ radiolokasiya stansiyasının inzibati təsərrüfat zonası və texniki mövqe" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1 200 000 |
| 1.11.7.4. | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 11 228 470 |
| 1.11.7.5. | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 87 500 000 |
| 1.11.7.5.1. | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 71 000 000 |
| 1.11.7.5.2. | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 16 500 000 |
| 1.11.7.6. | Azərbaycan İnvestisiya Holdinqi | 13 000 000 |
| 1.11.7.7. | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 396 686 |
| 1.11.7.8. | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 1 337 934 |
| 1.11.7.9. | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması xərcləri | 633 265 |
| 1.11.7.10. | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 255 541 500 |
| 1.11.7.10.1. | "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti | 37 000 000 |
| 1.11.7.10.2. | Digər təşkilatlar və tədbirlər | 218 541 500 |
| 1.11.7.11. | Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 6 996 000 |
| 1.11.7.12. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 112 108 250 |
| 1.11.7.13. | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması ilə bağlı xərclər | 12 000 000 |
| **1.12.** | **Əsas bölmələrə aid edilməyən xərclər** | **1 982 411 804** |
| **1.12.1.** | **Ehtiyat fondları** | **1 150 533 270** |
| 1.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 470 122 696 |
| 1.12.1.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 680 410 574 |
| **1.12.2.** | **Məqsədli büdcə fondları** | **290 000 000** |
| 1.12.2.1. | "Avtomobil yolları" Məqsədli Büdcə Fondu | 290 000 000 |
| **1.12.3.** | **Valyuta konvertasiyası** | **2 691 739** |
| 1.12.3.1. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 2 691 739 |
| **1.12.4.** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **539 186 795** |
| 1.12.4.1. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 20 000 000 |
| 1.12.4.2. | sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 519 186 795 |
| 1.12.4.2.1. | İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 3 975 746 |
| 1.12.4.2.2. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 23 085 770 |
| 1.12.4.2.2.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 10 183 897 |
| 1.12.4.2.2.2. | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 5 909 376 |
| 1.12.4.2.2.3. | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 7 980 |
| 1.12.4.2.2.4. | Məhkəmə qərarlarının icrası və digər sosial-iqtisadi tədbirlər | 6 984 517 |
| 1.12.4.2.3. | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 25 625 688 |
| 1.12.4.2.4. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 22 769 298 |
| 1.12.4.2.5. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 2 436 951 |
| 1.12.4.2.6. | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 160 999 997 |
| 1.12.4.2.7. | Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə | 260 922 245 |
| 1.12.4.2.8. | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 19 371 100 |
| **1.13.** | **2021-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği** | **10 040 875** |

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1.14-cü və 2.2.12.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2-ci maddəsinin 2.1.14-cü yarımbəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.3.həmin Qanunun 2-ci maddəsinin 2.2.12.2.1-ci yarımbəndində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları"Məqsədli Büdcə Fondu nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2022-ci il 28 iyun tarixli 559-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2022-ci il*

# Bakıda Fransanın Milli Günü münasibətilə tədbir keçirilib





Fransanın milli bayramı münasibətilə iyulun 14-də Bakıda rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Fransanın Azərbaycandakı səfiri Zakari Qross ölkələrimiz arasındakı münasibətlərdən danışıb. Bildirib ki, Azərbaycan ilə Fransa arasında əlaqələr müxtəlif sahələrdə inkişaf edib, hökumətlərarası münasibətlər yüksək səviyyədədir, prezidentlərimiz arasında intensiv dialoq var. Ölkələrimizin münasibətləri qarşılıqlı etimada əsaslanır. "Mən əlaqələrimizin gələcəyi barədə optimistəm. Əlaqələrimizin çiçəklənən və sabit gələcəyi var", - deyə səfir vurğulayıb.

Zakari Qross ölkəsinin Azərbaycanın azad olunmuş ərazilərində minalardan təmizlənmə prosesinə dəstək verdiyini, ANAMA ilə əməkdaşlığının olduğunu qeyd edib. Bildirib ki, minaaxtaran qurğuların və lazımi ləvazimatların təchiz olunması ilə bağlı ANAMA-ya dəstək verilir.

Diplomat əlavə edib ki, məcburi köçkünlərin bu ərazilərə təhlükəsiz qayıtması üçün torpaqların minalardan təmizlənməsi vacibdir. "Çox təəssüf ki, hələ də insanlar mina partlayışlarının qurbanları olur".

Səfir Azərbaycana minatəmizləmə əməliyyatlarında dəstəyi davam etdirməyə hazır olduqlarını bildirib.

Tədbir bədii proqramla davam edib.

# Gəncədə əmək yarmarkası









Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Gəncə şəhərində əmək yarmarkası keçirilib.

Agentlikdən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, məşğulluq tədbirində işsiz və işaxtaran şəxslərə 101 müəssisə tərəfindən 1460 vakant iş yerləri təqdim edilib. Vakansiya təqdim edən işəgötürənlər arasında həm dövlət müəssisələri, həm də özəl şirkətlər mövcuddur. İş yerləri iqtisadi fəaliyyət növünə görə, regionun əmək bazarının tələbatına uyğun olaraq istirahət əyləncə və incəsənət sahəsində fəaliyyət (turizm), kənd təsərrüfatı, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, emal, xidmət və istehsal sahələrini əhatə edib.

Yarmarkada eyni zamanda işsiz və işaxtaran şəxslərə Dövlət Məşğulluq Agentliyinin fəaliyyət istiqamətləri və layihələri barədə məlumat verilib. Aktiv məşğulluq tədbirlərinə müraciətlərin qeydiyyatı aparılıb.

# Azərbaycan tolerantlıq, dini dəyərlərə ehtiram nümunəsidir

Xalqımız öz milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə, dini inanclarına hər zaman sadiq qalıb. Tariximizin təlatümlü çağları çox olub, xalqımız ağır sınaqlardan keçib. Onu milli-mənəvi düşüncələrindən, dini etiqadından uzaqlaşdırmağa çalışıblar. Çox da uzaq olmayan tariximizdə - sovetlər dövründə nəinki buna cəhd göstərilib, hətta bu siyasət ozamankı mərkəzi hakimiyyətin əsas fəaliyyət istiqamətlərindən birinə çevrilib.

## Sovet hökumətinin boşa çıxan cəhdləri

1920-ci illərdə Azərbaycanda din əleyhinə fəaliyyət göstərmək məqsədilə tədbirlər görülüb. 1924-cü ilin yanvarında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) Mərkəzi Komitəsi Siyasi Bürosu Din Əleyhinə Komissiya yaradıb. Respublikanın şəhər və kəndlərində komissiya tərəfindən "Allahsızlar Cəmiyyəti" təşkil edilib. Dinə qarşı hücumlar 1929-cu ildən daha da gücləndirilib və genişlənidirilib. "Allahsızlar Cəmiyyəti" həmin il "Mübariz Allahsızlar İttifaqı"na çevrilib və bütövlükdə Azərbaycan cəmiyyətini dinindən ayırmaq, uzaqlaşdırmaq niyyəti ilə müxtəlif tədbirlər həyata keçirilib. "Allahsızlar Cəmiyyəti"nin sıralarını genişləndirmək üçün nəinki iş yerlərindən, ali məktəblərdən, hətta orta məktəblərdə şagirdlər arasından da üzvlər seçilib. Ali məktəblərdə ateizm dərsləri keçirilib. Ancaq bununla da istədikləri nəticəni əldə etməyiblər. Çünki əlaçı tələbələr belə ateizmi yalnız qiymət xətrinə oxuyurdular. Əhalinin ateistləşməsi prosesində məqsədinə çata bilməyən sovet hökuməti Azərbaycana dini məsələlərlə bağlı ən böyük zərbəni məscid binalarını, ibadətgahları bağlamaqla, din xadimlərinə divan tutmaqla vurub. Hətta tarixi əhəmiyyəti belə nəzərə alınmadan dini məbədləri, məscid binalarını anbarlara, uşaq bağçalarına çeviriblər. O dövrdə Azərbaycan tarixinə faciəli səhifələr yazılıb. Din xadimlərini, mollaları az qala sinfi düşmən elan edərək təqiblərə məruz qoyub, həbs edib, sürgünə göndərib, güllələyiblər. Qurani-Kərim və dinlə bağlı digər kitabları məhv etmək üçün görülən işlərlə də Azərbaycan tarixinə, elminə, mədəniyyətinə, incəsənətinə ağır zərbələr vurublar. Ərəb qrfikasında yazılmış əlyazmalar, eləcə də çap olunmuş kitablar müsadirə edilib, yandırılıb.

## Din-dövlət münasibətlərinin tənzimlənməsi sahəsində aparılan islahatların uğurlu nəticələri

1990-cı illərdə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə yaşayan bütün xalqlara öz dini ayinlərini həyata keçirmək üçün şərait yaradıldı. 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi. Həmin qanuna 1996-cı və 1997-ci illərdə müvafiq düzəlişlər olundu. Sonrakı illərdə Azərbaycan Respublikasında dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində dövlət tərəfindən çox mühüm və ciddi addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə böyük əhəmiyyətə malik tədbirlər həyata keçirdi. Prezident İlham Əliyev indi bu yolu yüksək həssaslıq və əzmlə davam etdirir. Dini etiqad azadlığının təmin edilməsi, din-dövlət münasibətlərinin tənzimlənməsi sahəsində aparılan islahatlar uğurla nəticələnib. Bu gün müasir, dinyəvi dövlət olaraq tanınan Azərbaycan dünyaya həm də tolerantlıq, dini dəyərlərə ehtiram nümunəsi göstərir. Ölkəmizdə yaşayan bütün xalqlar və etnik qruplar bir ailənin üzvləri kimi mehriban yaşayıb dolanırlar. Azərbaycanda dini ayinlərin icrasına hər cür şərait yaradılır. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili", 2017-ci il isə "İslam həmrəyliyi ili" elan edilib.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə son illər Azərbaycanda bir çox yeni məscidlər tikilib və ya bərpa edilib. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə məscidi, Həzrət Məhəmməd məscidi, Əjdər bəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib. Cənubi Qafqazın ən böyük və müasir məscidi - Heydər məscidi tikilib. Eyni zamanda respublikanın müxtəlif regionlarında bir çox ibadət evləri Heydər Əliyev Fondunun layihəsi çərçivəsində bərpa olunub.

## Erməni əsirliyindən qurtulmuş ərazilərimizdəki bütün məscidlərdən azan səslərinin yüksələcəyi günlər uzaqda deyil

Azərbaycan XX əsrin sonuncu onilliyində çox ağır sınaqlarla üzləşdi. İmperiyadan xilas olan respublikamızda bütün sahələrdə tənəzzül yarandı. Dövlət müstəqilliyi, azadlığı yolunda çətin də olsa irəliləməyə çalışan ölkəmiz erməni işğalçıları ilə münaqişəyə cəlb olundu. Ermənistan himayədarlarından aldığı sılah-sursat və digər yardımlar sayəsində ərazilərimizin iyirmi faizini işğal etdi. Bir milyondan çox soydaşımız yurdundan, evindən məhrum olundu. Təcavüzkar ermənilər minlərlə azərbaycanlını qətlə yetirdilər. Düşmənlər ana bətnində körpələrə, dünyada olanları hələ doğru-dürüst anlamayan uşaqlara, ömürlərinin bahar çağındakı gəlinlərə, qürub çağlarını yaşayan qocalara, yatağa məhkum xəstələrə, əlillərə belə acımadılar. Onları yalnız milli və dini mənsubiyyətinə görə dəhşətli işgəncələrlə, görünməmiş qəddarlıqla öldürdülər.

Ermənistan dövləti Qarabağ və Şərqi Zəngəzur torpaqlarını otuz ilə yaxın işğal altında saxladı. Bu illər ərzində Azərbaycanın həmin ərazilərində bütün tikililəri - yaşayış və inzibati binaları, tarixi-mədəni, dini abidələri uçurub dağıtdılar, yerləyeksan etdilər.

Azərbaycanda hansı xalqa, etnik qrupa, dinə məxsusluğundan asılı olmayaraq ibadətgahlar dövlət tərəfindən qorunaraq bərpa olunub. Bakının mərkəzində erməni kilsəsi belə yüksək səviyyədə bərpa olunub və fəaliyyətini davam etdirir. Ermənistan isə işğalda saxladığı ərazilərdə azərbaycanlıların dini ocaqlarını, məscidlərini, ibadətgahlarını dağıtdılar, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirdilər. Prezident İlham Əliyevin bildirdiyi kimi: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerləyeksan ediblər".

2016-cı ilin Aprel döyüşlərində ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Prezident İlham Əliyevin imzaladığı sərəncamla Ermənistan tərəfindən tamamilə dağıdılmış Zəngilan rayonunun Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu, evlər, məktəb, tibb məntəqəsi ilə bərabər, ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid də tikildi. O zaman həyata keçirilən quruculuq işləri Azərbaycanın mövqeyini əks etdirdi. Tariximizə, mədəniyyətimizə, dinimizə ehtiramımızın təzahürü olmaqla yanaşı, əminlik yaratdı ki, Azərbaycan dövləti, Azərbaycan xalqı öz tarixi torpaqlarını Ermənistanın işğalında qoymayacaq.

Azərbaycan tarixin müxtəlif dönəmlərində olduğu kimi, bu sınaqdan da alnıaçıq, üzüağ çıxdı. 2020-ci ilin 27 sentyabrından başlayan, 44 gün davam edən Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu amansız düşmənin yalnız ona qarşı silah qaldıran, atəş açan döyüşçüsü ilə vuruşdu, mülki əhaliyə toxunmadı. Ermənistan silahlı qüvvələrini məğlub etdi, düşmənləri torpaqlarımızdan qovdu.

Dövlətimizin başçısı xalqa müraciətlərində ermənilər tərəfindən Azərbaycanın tarixi-mədəni irsinin silinməsi cəhdlərinə son qoyulacağını, ərazi bütövlüyümüz tam bərpa edildikdən sonra dağıdılmış bütün abidələrimizin, məscidlərimizin bərpa ediləcəyini bildirmişdi. Noyabrın 10-da qalib ölkənin Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı olaraq xalqa müraciət edən İlham Əliyev dedi: "Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq".

Öz milli-mənəvi, dini dəyərlərini hər zaman qoruyub saxlamağa qadir olan Azərbaycan tarixi günlərini yaşayır. Düşmənin viran qoyduğu ərazilərimizdə artıq dövlətimizin diqqəti və qayğısı, xalqımızın sevgisi və əzmi ilə həyat yenidən canlanır. Artıq işğaldan azad olunmuş ərazilərimizdə sürətlə tikinti-quruculuq işləri aparılır. Həyata keçirilən mühüm işlər sırasında məscidlərin, ibadətgahların bərpası da var. İşğaldan azad olunmuş ərazilərdə mədəni və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun rolu xüsusi vurğulanmalıdır. Fondun dəstəyi ilə Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı, Ağdam Cümə məscidlərinin bərpa-təmir işləri görülüb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Kosmosda Yerin möcüzəsi

ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsinin (NASA) "James Webb" adlı kosmik teleskopu vasitəsilə əldə edilmiş ilk fotolardan birini ABŞ Prezidenti Co Bayden təqdim edib. Bu, kainatın insan tərəfindən qeydə alınan ən dəqiq və detallı rəngli fotosudur. Teleskop bu görüntüləri Yer kürəsindən təxminən 1.5 milyon kilometr uzaqda əldə edib.



"James Webb" teleskopu yeni nəsil rəsədxanası sisteminə aiddir. O, hazırda bu sinifdən dünyanın ən güclüsü hesab edilir. NASA-nın Avropanın və Kanadanın kosmik agentlikləri ilə birgə hazırladığı "James Webb" indiyədək liderliyini saxlayan "Habble"ın xələfi hesab olunur. Müstəsna ölçmə imkanları "Webb"in ən müasir dizaynı sayəsində mümkün olmuşdur. Teleskopun 270 kvadratmetrlik qızıl örtüklü güzgüsü infraqırmızı şüanı səmərəli şəkildə yığır, dəqiq spektroqrafları işığı minlərlə rəngdən ibarət göy qurşağına yayır. Həssas infraqırmızı detektorlar isə parlaqlıqdakı son dərəcə incə fərqləri ölçür.

NASA-nın rəhbəri Bill Nelsonun sözlərinə görə, kosmik rəsədxana tərəfindən çəkilmiş yüksəkkeyfiyyətli fotolar kainatın ən ucqar hissələrinə belə işıq salacaq. Bəşər tarixi ərzində heç bir teleskop kainatın bu qədər dərinliyinə gedə bilməyib. İndiyənədək alimlər teleskoplar vasitəsilə kainatın Böyük partlayışdan maksimum 330 milyon il sonrakı vəziyyətinə nəzər sala bilirdi. Böyük partlayış isə təqribən 13.8 milyard il bundan əvvəl baş verib. O, kainatın ən uzaq guşələrini "görmək" və Böyük Partlayışdan sonra ilk bir neçə milyon il ərzində yaranan ulduzların və qalaktikaların keçmişinə nəzər salmaq üçün hazırlanıb.

Teleskop ötən ilin sonunda kosmosa göndərilib. Bu, elə də asan olmayıb. O, təyinat yerinə çatmazdan əvvəl olduqca çətin yerləşdirmə prosesindən keçib. Bütün bu və digər problemlərə baxmayaraq, alimlər əmindirlər ki, "James Webb" öz rekordunu asanlıqla yeniləyəcək və kainatın yaranmasından sonra nələrin baş verdiyinə az da olsa, aydınlıq gətiriləcək. Teleskop bu nailiyyətinə görə böyük ölçülü güzgüyə və ən müasir güclü elmi dəstəyə borcludur.

Öz mükəmməl təchizatı hesabına "James Webb" qaz və tozdan ibarət sıx buludların arxasında gizlənən obyektləri belə görə bilir. Ən əsası da odur ki, hətta kainatın ən uzaq yerlərindən gələn işığı da "görür".

"James Webb" həm də təkcə kosmosu və Günəş sistemini deyil, uzaq məsafədəki ekzoplanetləri müşahidə edəcək. Bunun sayəsində mütəxəssislər onların atmosferlərinin Yer kürəsinə nə dərəcədə bənzədiklərini öyrənməyə və digər müxtəlif qəliz suallara cavab tapmağa çalışacaqlar.

Paylaşılan fotoda "SMACS 0723" adlı qalaktikalar qruplaşması əks olunub. Buna "qalaktikalar klasteri" də deyilir. Sözügedən foto "James Webb"in "NIRCam" kamerası vasitəsilə çəkilib. Əslində, nəhəng kainatın bu kiçik hissəsi onun təqribi olaraq, yalnız bir toz hissəciyi boyda sahəsini əhatə edir. Həm də bu görüntü kosmik teleskopun kamerası vasitəsilə müxtəlif uzunluqlu dalğalarda çəkilmiş çoxlu sayda fotonun birləşməsidir.

Ötən aylarda "James Webb" başqa bir ciddi problemlə də üzləşmişdi. Belə ki, gözlənilmədən meydana çıxan mikrometeoroid əsas güzgünün 18 seqmentindən birinə dəyib onu əhəmiyyətli dərəcədə zədələmişdi. Bu, teleskopun meteorlarla ilk toqquşması deyil. NASA-nın məlumatına görə, kosmosa göndəriləndən bəri teleskop ən azı dörd müxtəlif kiçik kosmik qaya ilə toqquşub. Lakin son toqquşma ilə müqayisədə onların ölçüləri xeyli kiçik idi.

Son məlumatlara əsasən, "James Web" nəhəng "WASP-96 b" ekzoplanetinin atmosferində suyun əlamətlərini tapıb. Planet Yerdən min işıq ilindən çox uzaqda, Feniks bürcündə "WASP-96 b" ətrafında fırlanan ulduz sistemində yerləşir. O, tamamilə yüksək temperaturadək qızdırılan qazdan ibarətdir. Kosmik rəsədxanadan alınan ilk spektral məlumatlar həmin cismin yuxarı atmosferində su buxarının, eləcə də orada buludların və dumanın mövcudluğunu göstərib. "Hubble" teleskopu son iki onillikdə çoxsaylı ekzoplanet atmosferlərini təhlil edərək, 2013-cü ildə suyun aşkarlanmasını öyrənsə də, "James Webb"in dəqiq və daha ətraflı müşahidəsi Yerdən kənarda potensial yaşayış olan planetləri xarakterizə etmək axtarışında irəliyə doğru böyük bir sıçrayış olduğunu göstərir.

Tədqiqatçılar yaxın zamanda qalaktikalar barəsində indiyədək bilinməyən məlumatları əldə etməyə başlayacaqlar. Çünki "James Webb"in tapşırıqları siyahısında ən qədim qalaktikaların axtarışı da var.

Hesablamalara görə, elmin bu yeni möcüzəsi kosmosda 20 il çalışacaq. Əvvəllər isə bu müddətin 10 il olduğunu qeyd edirdilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# REGİONLAR



## Naxçıvanda Dünya Şahmat Olimpiadası keçiriləcək

Bu il oktyabrın 1-dən 11-dək Naxçıvan şəhərində Dünya Şahmat Olimpiadası keçiriləcək. AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının məlumatında bu barədə qeyd olunub.

Beynəlxalq Şahmat Federasiyası (FIDE), Azərbaycan Şahmat Federasiyası və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək olimpiadaya FIDE-yə üzv olan hər bir federasiya bir komanda göndərmək hüququna malikdir. Hər komanda 4 oyunçudan və maksimum 2 ehtiyat oyunçudan ibarət olacaq.

Yarış İsveçrə sistemi ilə keçiriləcək və 9 turdan ibarət olacaq. Hazırda bu mötəbər yarışın qeydiyyat və təşkilati işləri ardıcıllıqla davam etdirilir. FIDE-nin üzvü olan federasiyalar yarışın rəsmi internet saytında artıq qeydiyyatdan keçirlər.

## Goranboyda özəl tibb müəssisəsi inşa olunur

Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar Goranboy rayonunda da sahibkarlığın inkişafı üçün əlverişli mühit formalaşdırmışdır. Bunun sayəsində son dövrlər rayonda özəl istehsal müəssisələri, orta və iri sahibkarlıq obyektləri fəaliyyətə başlamışdır.

Hazırda Goranboy şəhərində özəl tibb müəssisəsi - Medlife Hospital inşa olunur. Cari ilin mart ayında başlanmış tikintidə 40 nəfərə yaxın işçi çalışır. İlin sonunda istifadəyə veriləcək hospitalda ambulator və stasionar, cərrahiyyə, doğuş və təcili yardım şöbələri olacaq. Ambulator şöbədə ginekologiya, travmotologiya, lor, oftalmologiya, bütün laborator müayinələr, hər növ ultrasəs müayinələri və radiologiya xidmətləri göstəriləcək. Yeni tibb müəssisəsində 230-dan çox həkim və digər xidmət personalı fəaliyyət göstərəcək.

## Şəmkirdə bol çiyələk yetişdirilib

Son illər Şəmkirdə kənd təsərrüfatının digər sahələri kimi, meyvə və giləmeyvə sahələri də sürətlə inkişaf edir. Xüsusilə iqtisadi cəhətdən daha gəlirli olan çiyələk sahələrinin genişləndirilməsinə böyük maraq göstərilir. Buna səbəb məhsula tələbatın çox olmasıdır.



Hazırda rayonda 50 hektardan çox sahədə çiyələk becərilir. Məhsul istehsalçıları əkin zamanı məhsuldarlığı ilə seçilən "Murano", "Albion", "Cleri" növlərinə daha çox üstünlük verirlər. Fermerlər bol məhsul götürmək üçün təsərrüfatlara aqrotexniki qaydalara uyğun xidmət göstərirlər. Məhz bunun nəticəsidir ki, 1 hektar çiyələk sahəsindən 20-30 ton məhsul yığılır.

Məhsul istehsalında ən vacib şərtlərdən biri suvarma sisteminin düzgün qurulmasıdır. Suvarma damcı üsulu ilə aparılır. Bu üsul həm suya qənaət edir, həm də torpağı şoranlaşmadan qoruyur.

Çiyələk əkilən sahələrdə işlər ilboyu aparılır. Rayonda təsərrüfatın təkcə bu sahəsində 200 nəfərə yaxın insan ilboyu işlə təmin olunur. Yeri gəlmişkən onu da qeyd edək ki, çiyələk əkininə marağın artması həm də sahibkarlara göstərilən hərtərəfli dəstəkdən qaynaqlanır. Rayon rəhbərliyi tez-tez yerli sahibkarlarla görüşlər keçirir, onların arzu və istəklərini dinləyir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Pambıq sahələrində zərərvericilərə qarşı mübarizə tədbirləri aparılır

Ölkəmizdə pambığın əsas zərərvericiləri pambıq sovkası, tor gənəsi, payızlıq sovka, mənənə, trips və digərləridir. Düzgün planlaşdırılmış müşahidə və mübarizə sistemi pambığı təhlükəli zərərvericilərdən qorumağa imkan verir. Mübarizə zamanı pambıq sovkasının təbii düşməni olan trixoqrammadan istifadə edilir.

Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin Mərkəzi Laboratoriyasının Bioloji mübarizə vasitələrinin istehsalı məntəqəsi tərəfindən respublikanın pambıqçılıq rayonlarında pambıq sovkasının təbii düşməni və zərərvericinin yumurtası ilə qidalanan tüfeyli həşərat olan trixoqrammadan istifadə edilməklə bioloji mübarizə tədbirləri həyata keçirilib. Belə ki, cari ilin iyul ayına qədər Sabirabad rayonu "Azərpambıq " MMC-nin 3070 ha, Beyləqan rayonu "Azərpambıq "MMC-nin 3200 ha, Kürdəmir rayonu "Kürdəmir Pambıq" ASC-nin 280 ha, Saatlı rayonu "Azərpambıq" MMC-nin 2600 ha, Bərdə rayonu "Azərpambıq" MMC-nin 4000 ha, ümumilikdə 13150 ha pambıq sahələrinə sovkanın birinci nəslinə qarşı hektara 3 qr olmaqla trixoqramma səpilib.

# Lənkəran elə həmin Lənkərandır

### Amma daha abad, daha müasir və daha firavan

**Lənkəran qədim zamanlardan Azərbaycanın seçilən bölgələrindən biri kimi tanınmışdır. Xanlıqlar, hətta ondan əvvəlki və ondan sonrakı dövrlər, habelə sovet dövründə Azərbaycanın ümumi inkişafında Lənkəranın öz yeri, öz payı olmuşdur.**

Lənkəranın torpağı səxavətli, insanları əməksevərdir. Bir tərəfi silsilə dağlar, digər tərəfi mavigözlü Xəzər dənizi ilə əhatə olunan Lənkəran öz qoynunda nələr yetirmir? Məxməri çayı, çeşidli sitrus meyvələri, müxtəlif adda təamları, o cümlədən məşhur ləvəngisi süfrələrin bəzəyi, ağızların ləzzətidir. Hələ sovetlər zamanı respublikamıza gələn adlı-sanlı qonaqlar buraya olan səfərlərindən çox məmnun qalırdılar. Əsrarəngiz gözəlliklər diyarı haqqında onların dedikləri xoş sözlər rayonun tarix və diyarşünaslıq muzeyinin xatirə kitabında bu gün də yaşayır.

Keçən əsrin 90-cı illərində Lənkəran da çətinliklər, məhrumiyyətlərlə üzləşdi. Onilliklər boyu tikilib-qurulanlar dağıdıldı, çay plantasiyaları, sitrus meyvə bağları otlaq yerlərinə çevrildi. Amma Ulu Öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıtması nəticəsində qara buludlar ölkəmizin səmasından çəkilib getdi. Bütün işlər çətinliklə olsa da, öz yoluna düşdü.

2004-cü il fevral ayının 11-də Prezident İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı illərdən bəri yığılıb qalmış məsələlərin həllində dönüş nöqtəsi oldu. Bir çox mühüm sahələrlə yanaşı, rayonlarda, qəsəbə və kəndlərdə quruculuq işləri başladı. Bu sırada Lənkəran da sürətlə inkişaf etdi. Beynəlxalq hava limanı, Müalicə Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, məktəblər, xəstəxanalar tikildi, əvvəlkilər əsaslı təmir edildi. Lənkəran şəhərinin bərbad hala düşmüş küçələri asfaltlaşdırıldı, əhalinin elektrik enerjisinə və təbii qaza olan tələbatı ödənildi. Yeni iş yerləri açılması üçün mərkəzi və yerli icra orqanları qarşısında vəzifələr qoyuldu.

Atalar yaxşı deyib ki, uğurlu başlanğıc işin yarısı deməkdir. Birinci dövlət proqramı çərçivəsində başlanan işlər ikinci və üçüncü proqramlarla daha geniş şəkildə davam etdirildi. İqtisadiyyatın, sosial həyatın elə bir sahəsi olmadı ki, orada əsaslı dönüş yaranmasın. Bunlar isə insanların həyat tərzində, yaşayış səviyyəsində öz əksini tapdı.

Paralel olaraq çay, çəltik, sitrus meyvələri istehsalını artırmaq üçün dövlət başçısı tərəfindən göstərişlər verildi, sərəncamlar imzalandı. Bunların sayəsində çayçılıq dirçəldi, şirkətlər çayçılığa vəsait qoymağa başladı. Rusiyadan doğma kəndinə qayıdan sahibkar Araz Yaqubov bu sahədə uğurlu nəticələr qazandı. Yetişdirdiyi çayın şöhrəti xarici ölkələrdən gəldi. Sahibkar yaşıl çay yarpağını emal etmək üçün kiçik fabrik də tikdi. İstisu qəsəbəsində yaşayan qızgəlinlər istər plantasiyalarda, istərsə də həmin fabrikdə işləyib qazanc əldə etdilər.

Sovet dövründə tərəvəz istehsalını artırmaq, Moskvanı və Rusiyanın digər şəhərlərini tərəvəz məhsulları ilə təmin etmək üçün Kreml Azərbaycanda, o cümlədən Lənkəranda çəltiyin əkilib-becərilməsinə icazə vermirdi. Müstəqilliyimiz bərpa olunduqdan sonra isə lənkəranlılar yenidən çəltik becərməyə başladılar. Nəticəsi yaxşı oldu. Yetişdirdikləri məhsul keyfiyyətli olduğundan fermerlər onu sərfəli qiymətə satır, yaxşı gəlir götürürlər. Burada yetişdirilən "Sədri", "Ənbərbu", "Haşimi", "Akulə", "Həsəni" və digər düyülər öz ətri, tamı ilə seçilir. İndi rayonda bir neçə çəltik emalı müəssisəsi də fəaliyyət göstərir.

Sitrusçuluğun inkişafı sahəsində də Lənkəranda bir çox işlər görülmüşdür. Ayrı-ayrı fermerlər, sahibkarlar sitrus meyvələrinin istehsalını artırmaq üçün xarici ölkələrdən müxtəlif tinglər gətirib yeni bağlar salmışlar.

Artıq 2022-ci ilin yarıdan çoxu arxada qalmışdır. Bu dövr ərzində "Laran" MMC-nin Qənnadı məhsulları fabrikinin tikintisi başa çatmış, "Həyat" çörək zavodu, Gilan Lənkəran Konserv Zavodunda aylıq istehsal gücü 1500 ton olan tomatdoldurma xətti istifadəyə verilmişdir. Hazırda "LP" MMC tərəfindən plastik məmulatlar istehsalı müəssisəsində tikinti işləri davam edir. Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalının artımına xidmət edən infrastruktur layihələri - yeni yolların, elektrik xətlərinin çəkilişi, müasir suvarma şəbəkələrinin qurulması işləri həyata keçirilir. Çəltikçiliyin inkişafı məqsədilə Lənkəran Regional Təlim Mərkəzində İrandan gətirilmiş yüksək məhsuldarlıqlı 13 çəltik növü üzərində tədqiqat işləri aparılmış, 2 növ məhsuldar çəltik sortu dövlət sort sınağına təqdim edilmişdir. Hazırda rayonda çəltik əkini başa çatmaq üzrədir.

2022-ci ilin 6 ayı ərzində Lənkəran şəhərinin və şəhərətrafı küçələrin müasir səviyyədə işıqlandırılması üçün ümumilikdə 70 kilometr məsafədə 2,3 mindən çox yeni



elektrik dirəkləri basdırılmış, elektrik xətləri çəkilmişdir. Bu müddət ərzində 9 çoxmərtəbəli yaşayış binasının dam örtüyü, fasad hissəsi təmir olunaraq yenilənmişdir. Lənkəran şəhərində məcburi köçkünlər üçün tikilmiş 5 mərtəbəli 45 mənzilli yaşayış binası şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə verilmişdir. Qəzalı vəziyyətdə olan 5 çoxmərtəbəli yaşayış binasının 4-də bərpa-gücləndirmə və əsaslı təmir işləri aparılmış, qəzalı vəziyyətə düşdüyü üçün çoxmərtəbəli bina sökülərək yenisi inşa olunmuşdur.

Rayonda məktəb tikintisi də davam edir. Şıxakəran kəndində 432 şagirdlik məktəb binası tikilmiş, Heydər Əliyev Fondunun vəsaiti ilə inteqrasiya təlimli internat tipli məktəbin binası əsaslı təmir edilmişdir.

Lənkəranda turizm də ildən-ilə inkişaf edir. Cari ilin 6 ayı ərzində Haftoni qəsəbəsində "Dad" restoranı nəzdində yeni 20 kottec, Daşdatük kəndində üçmərtəbəli "Green Forest" istirahət mərkəzi tikilib istifadəyə verilmişdir. İstisu qəsəbəsində yerləşən "Sitrus vadisi" fermer təsərrüfatında "Şəhərdən kəndə" layihəsi çərçivəsində yenidənqurma işləri aparılmışdır. Bunlarla yanaşı, rayonun bir neçə kəndində çay plantasiyalarına və sitrus bağlarına səyahət etmək üçün şərait yaradılmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# "Qaxdan Qarabağa gedən yol"

### Bölgədə yaşayan həmkarımız igid həmyerlilərindən yazıb

...Vətən müharibəsinin ilk günləri idi. Qaxda yaşayan həmkarımız, rayonda çıxan "Şəlalə" qəzetinin redaktoru Xavər Əfəndiyevaya zəng vurduq. Xavər xanım zabit anasıdır. Bilirdik ki, oğlu, hərbi təyyarəçi, polkovnik-leytenant Sadiq Əfəndiyev ön cəbhədədir. Məqsədimiz də keçmiş tələbə yoldaşımıza, qələmdaşımıza ürək-dirək vermək, təmkinli olmağı tövsiyə etmək idi.

Elə yenicə dinmişdik ki, Xavər sözümüzü yarımçıq kəsdi:

- Nə mənim övladım bu gün cəbhədə şəhid olan oğullardan artıqdır, nə də mən onların anasından artığam...Təki bu müharibə qələbəmizlə bitsin, biz məğlub xalq kimi yaşamaq xəcalətindən xilas olaq.

Əslində, bu cavabı gözləməli idik. Çünki son üç onillik ərzində ölkəmizin müstəqilliyi, torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından-qanından keçən həmyerlilərindən yazdığı neçə-neçə oçerk, zarisovka ilə o, Vətən sevdalı bir xanım olduğunu təsdiqləmişdi. Bu qeydlərdən bir neçəsi "Azərbaycan" qəzetində dərc olunmuşdu.

Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra Xavər Əfəndiyevanın Qax rayonundan olan Vətən fədailəri haqqında yazılarının silsiləsi davam etdi. Bu yazıların kitab halında çap olunması təşəbbüsü isə müəllifin ailəsindən gəldi. Beləliklə, "Qaxdan Qarabağa gedən yol" kitabı Araz və Sadiq Əfəndiyev qardaşlarının maliyyə dəstəyi ilə araya-ərsəyə gəldi.

X.Əfəndiyevanın yazdıqlarından Qaxın yetirmələri olan igidlərimiz haqqında nəyi öyrənirik? Birinci Qarabağ müharibəsində qaxlı gənclərin göstərdiyi fədakarlığı Azərbaycanın Milli Qəhrəmanı, cəsur pilot Cavanşir Rəhimovun timsalında aydın görürük. İkinci Qarabağ müharibəsində isə Milli Ordunun baş leytenantı İzzət Balacayev Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. 12-dən çox qaxlı zabit döyüşdə göstərdiyi igidliyə görə ordenlə təltif olunub. Vətən müharibəsində Qaxın 29 igid yetirməsi şəhidlik zirvəsinə yüksəlib. Müəllif hər birinin həyat və döyüş yoluna ayrı-ayrılıqda nəzər salıb. Sözügedən kitabda onlar haqqında yazıların hamısı öz əksini tapıb.




"Vətən andı içənlər" hissəsində isə Vətən müharibəsində iştirak edən bir qrup qaxlı hərbçi haqqında söhbət açılır. "Hünəri ilə tarix yazanlar" hissəsində Birinci və İkinci Qarabağ müharibəsində igidlik göstərən şəhid və qazilərdən bəhs olunur.

Müəllif yazır: "Birinci Qarabağ müharibəsi zamanı əliyalın, sinəsini düşmənə sipər edən oğullarımızın igidlikləri havadarlarına arxalanan düşmənin özünü də mat qoymuşdu. Lakin vahid ordusu olmayan, başıpozuq rəhbərlərin ölkəni idarə etməsi sonda torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələndi. Bəşər tarixinin ən böyük faciəsini -Xocalı faciəsini yaşadı xalqımız. Dünya lal-kar olmuşdu. Haqq səsimizi eşitmək, görmək istəmirdilər. Düz 30 ilə yaxın işğal altında olan doğma yerlərin xiffəti ilə, tapdanmış izzəti-nəfsimizin utancı ilə yaşadı bu xalq. Və bir gün...Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, vaxtı, zamanı çatdı. Artıq Azərbaycan 30 il əvvəlki Azərbaycan deyildi..."

X.Əfəndiyevanın dediyi kimi, əsgərlərimiz Qarabağ uğrunda gözlərini qırpmadan ölümə atıldılar. Döyüşdə misli görünməyən cəsarət göstərdilər. Sal qayalara ayaqyalın dırmanan, toplu-tüfəngli düşmənin üstünə şığıyan Azərbaycan əsgərinin Vətən sevgisini bütün dünya gördü. Analarımız oğullarını döyüşə yola salanda "Vətən sizlərə əmanət" dedilər. Yeganə övladının müqəddəs bayrağımıza sarılmış tabutu qarşısında başı dik dayanaraq "Vətən sağ olsun!" deyən minlərlə anamızı gördük. Bu qələbə birliyimizin rəmzi oldu. Ordu-xalq-lider birliyi "dəmir yumruq" olub düşmənin başını əzdi.

"Milli Ordumuzun hünəri bəlkə də dastanlara sığmaz. Çünki Vətən müharibəsinin hər bir döyüşçüsü bir qəhrəmandır. O qəhrəmanların sırasında doğma Qaxımızın da övladları var. Hər biri bir əfsanəyə dönüb hünəri, igidliyi ilə", - qürurla qeyd edir müəllif.

"Qaxdan Qarabağa gedən yol" kitabının rayondakı Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində də məhz bütün bunlar bir daha qeyd olunub. Çıxış edənlər Birinci və İkinci Qarabağ müharibələrində Qax rayonunun 176 şəhid verdiyini xatırladıblar.Tədbir iştirakçıları müalicəsi davam edən Vətən müharibəsi qazilərinə cansağlığı diləyiblər. Müəllif isə bildirib ki, hələ şəninə min dastan deyiləcək igid Vətən oğullarının!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Siyəzən-Dağ Quşçu-Ərziküş avtomobil yolu yenidən qurulur



Ölkə ərazisində müasir yol infrastrukturunun yaradılması istiqamətində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan böyük miqyaslı tikinti və bərpa işləri davam edir.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu çərçivədə hazırda Siyəzən rayonunda Siyəzən-Dağ Quşçu-Ərziküş avtomobil yolu əsaslı şəkildə yenidən qurulur. Yenidənqurma işləri çərçivəsində əsasən torpaq əsaslı olan 27 kilometr uzunluğa malik yol 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Əsaslı şəkildə bərpasına ehtiyac olan yolun eni 7 metrə qədər genişləndirilir.

Hazırda ərazidə yolun profilə salınması, bitki qatının təmizlənməsi, yolun normativ eninin alınması üçün torpaq yatağının genişləndirilməsi işləri görülür. Artıq yolun 11 kilometrlik hissəsində həmin işlər yekunlaşıb.

Tikinti işləri çərçivəsində suların ötürülməsini təmin edən suötürücü dəmir-beton boruların bərpası və inşası da nəzərdə tutulub. Texnoloji ardıcıllıqla həyata keçirilən işlərin davamı olaraq yol əsasının tikintisi, ardınca isə 2 laydan ibarət asfalt-beton örtüyünün salınması işləri aparılacaq.

Son mərhələdə isə yolboyu avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə yol nişanlarının, kilometr göstəricilərinin və məlumatverici lövhələrin quraşdırılması, üfüqi nişanlanma xətlərinin çəkilməsi işləri görüləcək.

Yenidənqurma işlərinin tərtib olunmuş qrafikə uyğun yekunlaşdırılması üçün tikinti ərazisinə lazımi sayda canlı qüvvə və texnika cəlb olunub.





# TURİZM





# Cənnət görmək istəyən...

## Qarabağ və Şərqi Zəngəzurda görülən quruculuq işləri həm də bu bölgənin turizm potensialına hesablanıb



Prezident İlham Əliyev çıxışlarında dəfələrlə xatırlatmışdır: "Mən turizmi də ixrac növü hesab edirəm. Respublikamızda neftdən sonra ikinci gəlirli sahə turizmdir". Odur ki, ölkənin iqtisadi qüdrətinin daha da artması və Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün bu sahəyə xüsusi diqqət yetirilir.

Bu gün ölkəmizdə səyahətçilər üçün dünya standartları səviyyəsində şərait yaradılıb. Müasir nəqliyyat strukturu - gözoxşayan beşulduzlu Heydər Əliyev Beynəlxalq Aeroportu, eləcə də turistlərin daha çox üz tutduqları bölgələrdəki beynəlxalq hava limanları qonaqların xidmətindədir. Biz hələ paytaxt Bakıdan tutmuş bölgələrədək bir-birindən rahat yolları, gözəl hotelləri demirik. Demək olar ki, ölkəmizdə dünyanın bütün aparıcı hotellərinin brendləri fəaliyyət göstərir. Əsas məsələ odur ki, Azərbaycanda sabitlik var və gələn turistlərin təhlükəsizliyinə, səmərəli istirahətinə və gəzintisinə ciddi təminat var.

İndi MDB məkanında turistlərin daha çox üz tutduğu 10 ən yaxşı kurort və səyahət ölkəsi sırasında Azərbaycanın da adı çəkilir. Təbii ki, turizm sənayesinin çoxşaxəli olması, istirahətin təşkili üçün normal şəraitin mövcudluğu onların seçimində əsas amillərdəndir. Son illər ölkəmizdə bu sahənin inkişafı üçün Xəzərətrafı ərazilərdə və bölgələrdə sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərin inkişafına xüsusi diqqət yetirilib. Dövlət başçısının məqsədyönlü və balanslı xarici siyasəti, habelə uğurlu daxili siyasəti nəticəsində turistlər üçün Azərbaycan bu gün dünyada ən təhlükəsiz ölkə hesab edilir. Respublikamızda ilboyu turizm xidmətlərinin təqdim olunması onların təkrar bu yerlərə dönməsinə təsir göstərir. Dünyada olan 11 iqlim qurşağından 9-u Azərbaycandadır. Ölkəmizin tarixi mədəniyyət abidələri sırasında Qız qalası, Şirvanşahlar sarayı, Qobustan qayaları, Beşbarmaq dağı, Şəki xan sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Talış dağları və s. bu kimi ünvanlar turistlər üçün maraqlı olan məkanlardır.

Ötən ayın sonlarında Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin birgə təşkilatçılığı ilə "Nuh diyarı - Naxçıvan": 2020-2023-cü illər üçün Birgə Fəaliyyət Planı" mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində Türkiyə, İran və Azərbaycanı təmsil edən turizm şirkətləri və media nümayəndələri Naxçıvanda olublar. İştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etdikdən sonra Naxçıvan Biznes Mərkəzində keçirilən mərasimdə B2B (Biznesdən biznesə) formatlı görüşlərdə əməkdaşlıq perspektivləri nəzərdən keçirilib. Daha sonra hər üç ölkəni təmsil edən assosiasiya rəhbərləri arasında ikitərəfli görüşlər olub.

Qonaqlar həmçinin Ordubad rayonuna səfər edərək qədim diyarın turizm imkanları ilə yaxından tanış olublar. Turizm şirkətləri və media nümayəndələri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, "Nuh Peyğəmbərin məzarüstü türbəsi" və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edərək bu məkanlar barədə ətraflı məlumat əldə ediblər. Bundan sonra iştirakçılar Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində yerləşən Batabat yaylağı, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi, "Duzdağ" Fizioterapiya Mərkəzinin fəaliyyəti və turizm potensialı ilə də tanış olublar.

Azərbaycanın turizm məkanları sırasında Qəbələnin öz yeri var. Son dövrlər aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr Qəbələni daha da füsunkar edib. Bu yerlərin turizm-istirahət mərkəzləri dağ, çay, meşə zolaqları ilə əhatə olunub. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, alpinizm məşğələləri hər bir turisti maraqlandırır. Qonaqlar Qəbələnin adət-ənənələri, milli mətbəxi, mədəniyyət və tarixi, təbiəti ilə bağlı məlumat əldə edir, istirahətləri yüksək səviyyədə təşkil olunur. Statistika göstərir ki, öz məzuniyyətini Qəbələdə keçirən turistlərin sayında ilbəil artım müşahidə olunur.

Oğuz da turizm məkanı kimi məşhurdur. Son illər bu rayonda turizmin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Rayonun turizm mərkəzinə çevrilməsi üçün lazımi infrastruktur yaradılıb. Yenidənqurma işləri bu gün də davam etdirilir. Çoxları gözəlliyinə görə bu rayonu "Azərbaycanın İsveçrəsi" adlandırırlar. Ərazisinin az qala yarısı meşələrlə örtülü Oğuzda çoxlu şəlalə, kükürdlü və termal su bulaqları var. Ərazidə qədim tarix və memarlıq abidələri də mövcuddur.

Bu günlər Qazaxıstanın "Weproject.media" internet portalında ölkəmizin geniş turizm potensialından bəhs edən "Qədim sivilizasiyaların izləri, nadir təbiət hadisələri və zəngin mətbəxi ilə tanış olmaq üçün Azərbaycana səfər etmək lazımdır" adlı məqalə yer alıb. Yazıda respublikamızın görməli yerləri, mətbəxi, təbiəti, turizmi və mədəniyyəti, eləcə də tarixi haqqında oxuculara ətraflı məlumat verilib. Daha sonra müəllif Azərbaycanı nadir Qarabağ atlarının vətəni olduğunu, ölkə ərazisində doqquz iqlim qurşağının mövcudluğunu, möcüzəli "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun, dünyadakı palçıq vulkanlarının demək olar ki, yarısının Azərbaycanda olduğunu da səyahətsevərlərin diqqətinə çatdırıb, Qobustan qayaüstü rəsmlərinin UNESCO tərəfindən Dünya İrs Siyahısına daxil edildiyini qeyd edib, hər kəsə bu gözəl məkanda istirahət etməyi və gəzməyi məsləhət görüb.

İlyarım əvvəl əldə etdiyimiz Zəfər qələbəsindən sonra erməni işğalından azad edilmiş bölgələrə səfəri zamanı dövlət başçısı ictimaiyyət nümayəndələri ilə görüşlərində demişdir: "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində... Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcək".

Ötən ayın sonlarında Prezident İlham Əliyev Göygöl, Laçın və Kəlbəcər rayonlarına səfəri zamanı bir sıra obyektlərin açılışı ilə yanaşı, Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində də iştirak etmişdir. Burada 34 hektar ərazidə salınacaq "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, dünya standartlarına uyğun 10 kottec tikiləcək. Ekspertlərin də qeyd etdiyi kimi, Prezident tərəfindən burada "İstisu" sanatoriyasının əsasının qoyulması onu göstərir ki, erməni işğalından azad edilmiş bütün bölgələrdə ən qısa zamanda turizm infrastrukturu bərpa ediləcək və dünyanın turizm həvəskarları bu cənnətməkan ərazilərə axın edəcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Balaxanının turizm imkanları genişlənir

Balaxanı qəsəbəsində görülən yenidənqurma işləri sakinlər tərəfindən maraqla qarşılanıb. Yaşayış məntəqəsi özünəməxsus memarlığı - zövqlü tikililəri, dar küçələri və ənənəvi həyətyanı sahələri ilə seçilir. Balaxanıda Şirvanşahlar və Səfəvilər dövrünə aid bir çox maraqlı tarixi abidələr mövcuddur. Bu məkan haqqında söz düşərkən ilk ağıla gələn neft olur.









Ərazidə olduğumuz zaman müşahidə etdik ki, qəsəbənin küçələri abadlaşdırılıb, tarixi abidələr bərpa olunub, infrastruktur yenilənib. Bir sözlə, Balaxanı simasını büsbütün dəyişib. Küçə və məhəllələri dolandıqca insanda xoş ovqat yaranır. Yolboyu yerə qəmbər daşları döşənib, hasarların, darvazaların və pəncərələrin önünə dibçəklər qoyulub, müxtəlif güllər, dekorativ bitkilər əkilib. Evlər isə bir-birini tamamlayan rənglərlə bəzədilib. Görülən işlər buranın qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edir. Qəsəbədəki tarixi memarlıq abidələrinin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox böyük işlər aparılıb.

Bütün küçələrdə turizm yönümlü sahibkarlığın inkişafı, xüsusilə xalçaçılıq, xidmət sektorunda kiçik iaşə obyektlərinin, hostellərin yaradılması, milli suvenirlər, geyimlər, keramik qablar, musiqi alətlərinin satışı və digər sahələri təşviq etmək üçün şərait yaradılıb.

Prezident İlham Əliyev mütəmadi olaraq Bakının rayonlarına və qəsəbələrinə gedir, həyata keçirilən quruculuq və abadlıq işləri ilə yaxından tanış olaraq, aidiyyəti qurumlara müvafiq tapşırıqlarını verir. "Balaxanı kəndinin yeni dövrü başlayır" deyən dövlət başçısı sakinlərlə görüşündə qəsəbəyə xüsusi diqqətin olduğunu bildirib: "Hələ bir neçə il bundan əvvəl məşhur Balaxanı zibilxanasının təmizlənməsi, aradan qaldırılması artıq burada görülən ekoloji işlərə start verdi. Çünki bu həm Balaxanı sakinlərinə böyük əziyyət verirdi, həm də əlbəttə ki, bütövlükdə Bakı şəhərinin sakinlərinə çox mənfi təsir edirdi. O zibilxanadan qalxan tüstülər faktiki olaraq havanı böyük dərəcədə çirkləndirirdi və insanların sağlamlığı üçün də bunun böyük ziyanı olmuşdur. Mən bu yaxınlarda həmin o layihə ilə bağlı televiziyalara müsahibəmdə öz sözlərimi dedim, təkrar etmək istəmirəm, vaxtilə zibilxana olmuş yer indi gözəl bir poliqona çevrilib və iş yerləri yaradılıb. Burada sənaye parkı, zibilyandırma zavodu fəaliyyət göstərir. Eyni zamanda onun yanında yerləşən Böyükşor gölünün böyük hissəsi də artıq təmizlənib və gölün üzərindən yol da çəkilib. Ona görə indi gediş-gəliş üçün də yaxşı imkanlar yaradılıb".

### Mirzə Ələkbər Sabir bu məktəbdə çalışıb

Abşeronda neft istehsalından əvvəlki dövrdə əhalinin əsas məşğuliyyəti əkinçilik, bağçılıq, bostançılıq olub. Daha sonra neft qoxulu, zibil poliqonlu bir əraziyə çevrilib. Buranın Böyük İpək yolunun üstündə yerləşməsi tarixən Balaxanını strateji bir yerə çevirib. Bu ərazi uzun əsrlər boyu şərqdən qərbə qədər uzanan karvan yolunun əsas məntəqələrindən biri olub. XX əsrin əvvəllərindəki neft bumundan sonra Balaxanı nefti ilə tanınmağa başlayıb.

Qəsəbədəki Mirzə Ələkbər Sabir adına park, Xacə Ruhulla imarəti, 1635-1636-cı illərə aid Şah Səfi karvansarası, XIV əsrə aid Hacı Şəhla məscidi və Şakir ağa türbəsi, ovdan, Qum hamamı və digər tarixi abidələr bərpa olunub. Tədqiqatçılar qeyd edirlər ki, Balaxanıda lap qədim zamanlardan mədrəsələr fəaliyyət göstərirmiş. Mirzə Ələkbər Sabir 1910-cu ildə Balaxanı məktəblərində çalışmışdır. Bir çox məşhur şeirlərini də o, məhz burada yazmışdır. Kəndin adının mənası Qılman İlkinin "Bakı və bakılılar" kitabında qeyd olunub: yerli balaxanılılar öz dillərində bu kəndə "Bəəxonə" deyir ki, "bəə" - yuxarı, hündür, "xonə" - ev deməkdir.

### Qəsəbəyə yeni ruh gəlib

Maraqlısı budur ki, küçə boyu binaların divarlarına fərqli freska və qrafiti nümunələri çəkilib. Xüsusi arxitektur görünüş qazanmış dalanlar rəngarəng dibçək gülləri ilə bəzədilib. Balaxanı küçələrində qəsəbə sakinləri ilə söhbətimiz zamanı onların yaradılan şəraitdən razı qaldıqlarının şahidi olduq. Sakinlər deyirlər ki, artıq qəsəbəyə yeni ruh gəlib.

Qəsəbə sakini, eyni zamanda bizə bələdçilik edən Aytən Əzimova deyir ki, Balaxanı neftin ilk aşkarlandığı ərazidir: "Balaxanı Bakının qədim ərazilərindən biridir. Neft quyularının birinin dibindən 1594-cü ilə aid daş kitabə tapılıb. Daş kitabənin üzərində "Allahyar Məmmədnuru oğlu 1594-cü il" qeyd olunub. Qəsəbəmiz illərlə baxımsız vəziyyətdə qalmışdı. Lakin dövlətimizin dəstəyi ilə 2019-cu ildən bəri qəsəbədə abadlıq işləri aparılıb. Bu həm yerli sakinlərin, həm də qəsəbəyə gələn turistlərin marağına səbəb olub. Aparılan abadlıq işləri insanlarda xoş təəssürat yaradıb. Şəhərin səs-küyünə baxanda qəsəbəmizin sakitliyi və sərinliyi insanda xoş əhval-ruhiyyə yaradır".

Bizimlə təəssüratını bölüşən digər sakin Leyla Babayeva isə deyir: "Qəsəbəmizin yeni görkəm alması bizi çox sevindirir, xoş ovqat yaradır. Hazırda yaradılan şəraitlə tanış olmaq üçün Balaxanıya çoxlu insan gəlir. İnanırıq ki, qəsəbəmiz turistik məkana çevriləcək. Bu, bizim də xeyrimizədir, əlavə iş yerləri deməkdir".

### Tarixi abidələr bərpa edilib

Balaxanı tarixi abidələri ilə də tanınıb. Burada yerləşən Hacı Şəhla məscidi Balaxanı qəsəbəsinin qəbiristanlığında hündür bir təpənin üzərində tikilmiş XIV əsr memarlıq abidəsidir. Balaxanı qəbiristanlığında yerləşən Şakir ağa türbəsi 1427-1428-ci ildə inşa olunub və 1385-1386-cı ildə tikilən Hacı Şəhla məscidindən altı metr məsafədə yerləşir. Şakir ağa türbəsi memarlıq baxımından Balaxanı abidələrinin ən qiymətlisi hesab olunur.

Qəsəbədə vaxtilə 18 hamam olub. Demək olar ki, hər məhəllənin hamamı var idi və onlar həm adlarına, həm də memarlıq üslubuna görə bir-birindən fərqlənib. Qəsəbədə olarkən tarixi abidələrdən birinə - qədim Qum hamamına da baş çəkdik. XIV əsrə aid tarix-memarlıq abidəsi ümumilikdə bir-biri ilə əlaqəli üç hissədən ibarətdir. Birinci hissə əsas giriş sayılır. Buradan dəhliz soyunma, paltar saxlama və geyinmə otaqlarına aparır. İkinci hissə isti və soyuq su hovuzları ilə təchiz olunmuş böyük çimmə zalıdır. Bu zala yanlardan kiçik otaqlar da birləşir.

### 40 pilləkənli ovdan

Qəsəbədəki ovdan Şirvanşah əmiri Xacə Zeynəddinin göstərişi ilə XIV əsrdə tikilib. Pilləkənlərinin quruluşu Şirvanşahlar sarayında olduğu kimi, bir qədər hündürdür. Ovdanın 2 metrə yaxın hündürlüyü olan giriş tağı var. Ehtimal olunur ki, Qum hamamı ilk vaxtlar məhz bu ovdanın suyu ilə işlədilib. Ovdandan su götürmək üçün lay daşlardan yonulmuş 40 pilləkəni düşmək lazım gəlir. Onun çox az hissəsi yerin üstündə, qalanı torpağın altındadır. Burada da yenidənqurma və bərpa işləri aparılıb. Keçmişdə ovdan vasitəsilə Balaxanının içməli suya olan tələbatı ödənilib.

Balaxanıdakı Şah Səfi karvansarası 1635-1636-cı illərdə inşa olunub. Bu tarixi abidə yerli əhəng daşı materiallarından tikilib və əhali arasında Xacə Ruhulla imarəti kimi tanınıb. Karvansara usta Bürhan və sərkər Behbud tərəfindən inşa edilmişdir. İnşasını isə I Şah Səfi sifariş etmişdir.

Balaxanı qəsəbəsinin yenidən bərpası onun turizm baxımından cəlbediciliyini daha da artırıb. Ölkə rəhbərinin tapşırıqlarına əsasən, Bakı şəhərinin bütün rayonlarının kənd və qəsəbələrində aparılan yenidənqurma tədbirləri qarşıdakı dövrdə daha da sürətləndiriləcək və abadlıq işləri geniş vüsət alacaq.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***












# "Azercell" xəbərdarlıq edir

"Azercell Telekom" MMC bütün abunəçilərini vatsap tətbiqi, SMS və digər kanallar üzərindən göndərilən şübhəli məzmunlu keçidlərə, sorğu və ismarışlara reaksiya verməməyə çağırır. Bildiririk ki, müvafiq məzmunun "Azercell"ə heç bir aidiyyəti yoxdur. Yarana biləcək əlavə xərclərin qarşısını almaq üçün "Azercell Telekom" MMC öz abunəçilərinə şübhəli zəng və mesajları cavablamamağı, etibar doğurmayan internet saytlardan istifadə etməməyi, həmçinin cihaz və nömrə ilə bağlı təhlükəsizlik tədbirlərinə əməl etməyi, telefonlarını nəzarətsiz qoymamağı, şübhəli məzmunlu müxtəlif oyun, yarışma və s. təkliflərdən yararlanmamağı tövsiyə edir.

# Taxıl sammiti qlobal problemi həll edə biləcəkmi?

## Türkiyənin vasitəçiliyi ilə keçirilən görüşdə dördtərəfli əlaqələndirmə mərkəzinin yaradılmasına qərar verilib

**Ukrayna limanlarında yığılıb qalan taxılın təhlükəsiz daşınmasını təmin etmək üçün BMT nümayəndələrinin iştirakı ilə İstanbulda aparılan Türkiyə, Rusiya və Ukraynanın hərbi nümayəndə heyətləri arasındakı danışıqlar başa çatıb.**



Bundan əvvəlki taxıl sammiti ötən ayın 21-də Moskvada Rusiya və Türkiyənin müdafiə nazirliklərinin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmişdi və danışıqlarda Ukrayna taxılının ixracı variantları müzakirə olunmuşdu. İstanbul görüşü isə taxıl ixracı üzrə danışıqların növbəti mərhələsi idi.

BMT və bəzi Qərb liderləri dəfələrlə bildiriblər ki, taxıl çatışmazlığı səbəbindən dünya ərzaq böhranı ilə üzləşə bilər. Çünki may ayına qədər Ukraynanın topladığı taxılın həcmi ilə bağlı müxtəlif rəqəmlər səsləndirilir. Müxtəlif hesablamalara görə, Ukrayna 4,5 milyon tondan 20 milyon tona qədər taxıl toplayıb. Yəni toplanan taxılın real həcmi ilə bağlı dəqiq məlumat yoxdur.

İstanbul sammitinə gəldikdə isə, Türkiyənin milli müdafiə naziri Hulusi Akar görüşün nəticəsini şərh edərək deyib ki, konstruktiv keçən görüşdə müsbət nəticələr əldə edilib. Belə ki, görüşdə bütün tərəflərin nümayəndələrinin iştirak edəcəyi əlaqələndirmə mərkəzinin yaradılması, limandan çıxışda və çatdırılma nöqtələrində birgə nəzarət, naviqasiya təhlükəsizliyinin təmin edilməsi kimi əsas texniki məsələlər razılaşdırılıb.

Hulusi Akar bütün dünyaya təsir edən taxıl böhranını həll etmək üçün Moskva və Kiyevlə keçirilən görüşlərdə digər ərzaq məhsullarının da Ukrayna limanlarından daşınmasının vacibliyini vurğulayıb. Nazirin dediyinə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan böhranın ilk günlərindən bununla bağlı Rusiya Prezidenti Vladimir Putinə və Ukrayna Prezidenti Vladimir Zelenskiyə müraciət edib. Türkiyə Prezidenti bu məsələləri gündəmə gətirməklə problemin həllinin son dərəcə vacib olduğunu qeyd edib.

Nazir həmçinin qeyd edib ki, ərzaq böhranının həlli istiqamətində atılmış və mühüm addım olan iclasda taxıl və digər ərzağın gəmilərlə təhlükəsiz daşınması ilə bağlı bütün detallar razılaşdırılıb: "Əsas prinsiplər haqqında saziş bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Tərəflərin bu problemi həll etməyə hazır olduğunu görürük. BMT ilə koordinasiyada həll yolu tapmağa çalışacağıq. Bu mənada Ukrayna və Rusiya nümayəndə heyətlərinin gələn həftə Türkiyədə yenidən bir araya gəlməsi qərara alınıb. Bu görüşdə bütün detallara yenidən baxılacaq və rəsmi sənəd imzalanacaq".

Rusiya, Ukrayna və BMT nümayəndə heyətlərinə taxıl və ərzaq daşınması məsələsinə verdikləri töhfəyə görə təşəkkür edən nazir Türkiyənin bütün dünya üçün humanitar problem olan ərzaq böhranının həllinə, həmçinin regional və beynəlxalq sülhün bərqərar olmasına töhfə verməyə davam edəcəyini vurğulayıb.

Bu arada Ukrayna Prezidenti Vladimir Zelenski İstanbulda keçirilən dördtərəfli görüşdə irəliləyiş əldə olunduğunu bildirib və Türkiyə ilə BMT-yə dünyanın ərzaq təminatının yenidən başlaması üçün göstərdikləri səylərə görə təşəkkür edib. O, "Telegram" hesabında İstanbuldakı dördtərəfli görüşlə bağlı fikirlərini bildirib. Dünya bazarına ərzaq tədarükünü bərpa etmək üçün çox mühüm səylər göstərdiklərini vurğulayan Zelenski qeyd edib: "Mən BMT və Türkiyəyə göstərdikləri səylərə görə minnətdaram. Bu hekayənin uğuru təkcə dövlətimizə deyil, mübaliğəsiz bütün dünyaya lazımdır".

Qara dənizdəki gəmilər üçün təhlükə aradan qaldırılarsa, bunun qlobal ərzaq böhranının şiddətini yumşaldacağını bildirən Zelenski əlavə edib ki, yaxın günlərdə Ukrayna nümayəndə heyəti BMT baş katibi ilə təfərrüatları razılaşdıracaq.

Öz növbəsində, BMT-nin baş katibi Antoniu Quterreş İstanbuldakı taxıl sammitində aparılan danışıqların əhəmiyyətini, bu mövzuda irəliləyiş olduğunu bildirib. Onun dediyinə görə, Ukrayna ərzağının Qara dəniz vasitəsilə təhlükəsiz ixracını təmin etmək üçün bu, irəli atılan son dərəcə mühüm addımdır. "Qlobal böhranın qaranlığına qərq olmuş dünyada "ümid işartısı yaranıb", - deyə Quterreş bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Paşinyan erməni diasporunun "xidməti"ndən imtina edir

## Rəsmi İrəvan xaricdə yaşayan ermənilərin ölkəyə müdaxiləsini məhdudlaşdırır

**Ermənistanın mövcud çətinliklərlə üzləşməsində, regionun ən zəif halqasına çevrilməsində erməni diasporunun rolu kifayət qədər böyük olub. Buna səbəb odur ki, diaspor Ermənistandan həmişə öz maraqları naminə istifadə edib. Bu kontekstdə isə Ermənistan bütün inkişaf parametrlərinə görə region ölkələri ilə müqayisədə çox geridə qalıb.**

Eyni zamanda İrəvanın region dövlətlərlə düşmənçilik siyasətinin həyata keçirilməsində diasporun da rolunun olduğu heç kimə sirr deyil. Ancaq indi görünür ki, mövcud hakimiyyət diasporun təsir dairəsindən uzaq olmağa çalışır.

Bu fonda Ermənistanın milli təhlükəsizlik xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim edib. Layihədə "diaspor erməniləri"nin Ermənistan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulur. Bildirilir ki, xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq almaq prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Ermənistan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir.

Hazırda qüvvədə olan qanuna görə, istənilən xarici ölkədə yaşayan erməni Ermənistana ayaq basan kimi vətəndaşlıq almaq üçün müraciət edə bilər. Ermənistanın milli təhlükəsizlik xidmətinin qanuna əlavə və dəyişikliklərlə bağlı açıqlamasında qeyd olunur ki, əsasən Yaxın Şərq, Suriya, Livan və İordaniyadan gələn və erməni olduqlarını iddia edən şəxslər Ermənistan vətəndaşlığı almaq üçün daha çox müraciət edir və vətəndaşlıq aldıqdan sonra ölkəyə 4-5 ildə bir dəfə gəlir və yaxud ümumiyyətlə gəlmirlər.

Ermənistanın üzləşdiyi çoxsaylı problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində əsas günahkar tərəflərdən biri kimi diaspor təşkilatları da göstərilir. Ermənistanın istər daxili, istərsə də xarici siyasətinin müəyyən olunmasında həlledici təsir gücünə malik olan diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edib. Fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə qarşılaşmayan erməni diasporunu əslində Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi İrəvanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir.

Ölkə hakimiyyəti isə hər zaman diaspor qurumlarından gələn göstəriş və əmrləri canla-başla yerinə yetirməyə müntəzir dayanır. Elə bunun nəticəsidir ki, Ermənistanın taleyini həll edən qərarlar ölkə daxilində yox, onun sərhədlərindən kənarda qəbul olunur. Bu vəziyyət Ermənistanın onsuz da formal xarakter daşıyan dövlətçiliyinin məhvini daha da sürətləndirməkdə, onun iflasını tezləşdirməkdədir.

Real vəziyyətin təhlili göstərir ki, həqiqətən də baş nazir Paşinyan postmüharibə dövründə təkcə ölkə daxilində yox, həm də xaricdə dəstəyini itirir. Xüsusən də erməni diasporunun təmsilçilərinin ondan açıq şəkildə üz döndərdiyi özünü qabarıq formada büruzə verir. Yerli media da yazır ki, baş nazirlə erməni diasporunun təmsilçiləri arasında münasibətlər get-gedə pisləşir. Elə bu səbəbdəndir ki, özünün xaricə səfərləri zamanı Paşinyan diaspor nümayəndələri ilə görüşdən qaçır. Eyni zamanda diaspor qüvvələrinin də Ermənistan baş nazirinə qarşı fəaliyyəti genişlənir, Paşinyanın son xarici səfərləri etirazlarla qarşılanır. Ötən il Ermənistan rəhbəri Fransada səfərdə olarkən diaspor nümayəndələri onun toplantı keçirdiyi binanın qarşısında etiraz aksiyasına başlamışdı. Nəticədə mühafizəçiləri Paşinyanı arxa qapıdan çıxarmağa məcbur olmuşdular.

Ölkədə iqtisadi durum da getdikcə ağırlaşır. Bunu keçirilən sosioloji sorğular da təsdiqləyir. Bu günlərdə rəyi soruşulan insanların 38,3 faizi ölkə iqtisadiyyatının pis vəziyyətdə olduğunu düşünür. Respondentlərin 35,6 faizinin fikrincə, Ermənistan iqtisadiyyatı ağır vəziyyətdədir. Əhalinin yalnız 0,6 faizi iqtisadi vəziyyətin yaxşı olduğunu bildirib. Ermənistanın ümumi dövlət borcunun getdikcə artmasının da ciddi çətinliklər yaradacağı istisna olunmur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə **2022**-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "AzərEnerji" ASC-dən əhaliyə xəbərdarlıq videoçarxı

"AzərEnerji" ASC yüksəkgərginlikli elektrik xətlərinin altındakı mühafizə zonasına yem, saman, odun yığmaq, ocaq və ya tonqal qalamaq, tarla və zəmiləri, o cümlədən taxıl sahələrini biçindən sonra yandırmağın qanunla qadağan edilməsi barədə xəbərdarlıq videoçarxı hazırlayıb. "Xətlərin altında ocaq, otlaq və ya əkin sahələrini yandırmayın ki, həyatınız və işığınız sönməsin!" devizi altında hazırlanan videoçarxı təqdim edirik.

Qeyd edək ki, son günlər ölkənin bir çox ərazilərində biçindən sonra taxıl sahələrinin yandırılması halları artıb və bu da təbii ki, daha geniş əraziləri əhatə edən yanğınlara səbəb olmaqla yanaşı, elektrik xətlərinin normal iş rejiminə də təhlükə yaradır.

# ÜST COVID-19 peyvəndinin ikinci "buster" dozası ilə bağlı payız fəsli üçün tövsiyələr verib

COVID-19 vaksinasiyası ilə bağlı cari vəziyyət, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionunda xəstəliyin mövcud və proqnozlaşdırılan epidemiologiyası və "Omikron" ştamına qarşı peyvəndin effektivliyinə dair sübutlara əsaslanaraq, İmmunlaşdırma üzrə Avropa Texniki Məsləhət Qrupu (ETAGE) üzv dövlətlərə yerli vaksinasiya strategiyasına uyğun olaraq müvafiq qrupların COVID-19 peyvəndinin ilkin 2 dozası və 1-ci "buster" dozasının qəbul edilməsi ilə bağlı səyləri gücləndirməyi tövsiyə edir.

ÜST-ün Azərbaycan nümayəndəliyindən AZƏRTAC-a verilən məlumata görə, əlavə qorunmanı təmin etmək, ağır xəstələnmə, xəstəxanaya yerləşdirilmə, COVID-19-dan ölüm riskini minimuma endirmək və səhiyyə xidmətlərinin davamlılığını maksimum dərəcədə artırmaq üçün ölkələr bu addımları atmalıdır:

- 5 yaşdan yuxarı orta və ağır immunçatışmazlığı olan şəxslərə və onların yaxın təmaslarına ikinci "buster" dozanın tətbiq edilməsi;
- yaşlılar, tibb işçiləri və hamilə qadınlar da daxil olmaqla, xüsusi risk qruplarına ikinci "buster" dozanın tətbiq edilməsi;
- mümkün olan hallarda COVID-19 və mövsümi qripə qarşı peyvəndlərin birgə tətbiqinin nəzərdən keçirilməsi.

ÜST-ün Azərbaycan nümayəndəliyi COVID-19 vaksinasiyasına dair ən son tövsiyələri yerli səhiyyə tərəfdaşları ilə bölüşüb.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Aqil Abbasa bacısı

**ƏDİBƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**SƏXAVƏT SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rafiq Aslanov AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**AKİF FƏRHAD OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Milli Məclisin deputatı Aqil Abbasa bacısı

**ƏDİBƏ NƏSİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin deputatı Aqil Abbasa bacısı

**ƏDİBƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi Enerji Satış Departamentinin Sayğac Quraşdırma və Uçota Nəzarət İdarəsinin rəisi Vahid Hüseynova anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Rayon Məhkəməsinin sədri Ceyhun Əhmədova əzizi

**NAZİM XASIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 4753**
**Sifariş 1929**
**Qiyməti 40 qəpik**